www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu   Gündəlik qəzet  26 iyul 2023-cü il   Çərşənbə  № 127 (8263)  Qiymәti  60 qəpik

**Xəbər**

## Anadan ilginc hərəkət: həbsdəki oğluna balın içində heroin apardı

yazısı səh.15-də

**Gündəm**

### Rusiya paytaxtında daha bir üçlü görüş: Kremlin "yol xəritəsi" varmı?



Mirzoyan Moskva görüşünə Tehrandan gəldi; erməni nazirdən ənənəvi saxtakarlıq, Lavrovdan isə...

yazısı səh.3-də

### İki peşəkarın Prezidentin xüsusi tapşırıqlar üzrə nümayəndə təyinatında hədəf

yazısı səh.9-da

### Transxəzər layihəsi niyə reallaşmır? - Aşqabaddan Bakının mövqeyinə təəccüblü reaksiya

yazısı səh.10-da

### Orduya çağırış yaşı artırılacaq? - hərbi ekspertdən maraqlı təklif

yazısı səh.6-da

### Güneydə 15 milyon soydaşımız təhlükədə - bu yayın sonunadək...

yazısı səh.11-də

### Dələduzluqda suçlanan "İmam Mehdi"nin xanımı "Yeni Müsavat"a yazdı: "Hansısa qüvvələr..."

yazısı səh.15-də

### Ukrayna üçün mühüm gün - iyulun 26-da...

yazısı səh.14-də

### Azərbaycanın antirekordu: bu göstərici üzrə niyə illərdir dünya birincisiyik?

yazısı səh.13-də

### Kondisioner xəstəlik yaradır? - bir daha mif və gerçəklik haqda

yazısı səh.15-də

### Xəzər bir gündə 3 gənci uddu - boğulanların çoxu niyə cavanlardır?

yazısı səh.5-də

# QARABAĞDAKI XUNTAÇILARIN ÖZÜNÜİFŞA HƏFTƏSİ: BLOKADA TAMAŞASININ QƏMLİ SONLUĞU

Sıfır nəticə, iflas olan ultimatum! Terrorçu-kriminal ünsürlər başlarını itirib; **politoloq:** "Erməni sakinlər belə separatçılara kütləvi dəstək vermədi..."




yazısı səh.8-də

# Erməni radikalların qorxunc ssenarisi - Bakı antiterror əməliyyatını tezləşdirə bilər

**Təhlükəsizlik üzrə ekspert:** "Ermənilər unutmasınlar, sülhdən imtinanın nə ilə sonuclanacağı məlumdur..."

yazısı səh.5-də



*Fazil Mustafa:*

### "Azərbaycana ən böyük təhlükə xalqın laqeydliyidir"

yazısı səh.4-də



Əli Əkbər Vilayəti

### Azərbaycanlı tarixçi alimdən Xameneyinin ali müşavirinə tutarlı cavab

yazısı səh.9-da



### Prezident sərəncamı Mövlam Şıxəliyevin son ümidini belə kəsdi

yazısı səh.7-də

yazısı səh. 8 və 9-da
yazısı səh.7-də

# Azərbaycan PUA və silahları İstanbulda nümayiş etdirilir



Kamran Əliyev

## 28 şəxs rüşvət alarkən yaxalanıb - baş prokuror

**Bu ilin ilk 6 ayında korrupsiya cinayəti törədən 28 şəxs cinayət başında yaxalanıb. Musavat.com Trend-ə istinadən xəbər verir ki, bunu dünən baş prokuror Kamran Əliyev qurumun geniş kollegiya iclasında çıxışı zamanı deyib.**

O qeyd edib ki, bu ilin birinci yarımili ərzində Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməliyyat qurumları tərəfindən 85 cinayət işi başlanılıb, keçirilmiş 19 əməliyyat tədbiri nəticəsində korrupsiya cinayəti törədən 28 şəxs cinayət başında yaxalanıb, habelə 18 nəfər axtarışda olan şəxs saxlanılıb.

Həmçinin bildirilib ki, birinci yarımil ərzində Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində fəaliyyət göstərən "161 Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş 2700 müraciətdən 43-ü üzrə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanıb.



## Tramp Həbibin fanatı imiş - eks-prezident onun UFC-yə qayıtmasını istəyir

**Amerika Birləşmiş Ştatlarının keçmiş prezidenti Donald Tramp son müsahibələrinin birində etiraf edib ki, o, Həbib Nurməhəmmədovu fantastik döyüşçü hesab edir.**

Musavat.com xəbər verir ki, bu barədə sportskeeda.com saytı yazıb.

"Düşünürəm ki, Həbib əla döyüşçü idi və çox güman ki, geri qayıtmayacaq. Amma mən dünən gecə UFC prezidenti Den Uaytdan soruşdum: "Həbib haradadır? Onu qaytaracaqsan?"

Norton Nurməhəmmədovun anasına bir daha heç vaxt döyüşməyəcəyinə söz verdiyinə diqqət çəkəndə Tramp müdaxilə edib və əlavə edib: "Bəli, atası öləndə onda xüsusi bir hallar var idi, amma həmişə onun fantastik döyüşçü olduğunu düşünürdüm".

Həbib Nurməhəmmədov bütün dövrlərin ən böyük qarışıq döyüş ustalarından biri hesab olunur. O, UFC-də 29-0 hesabıyla mükəmməl rekord müəyyən edib, karyerasını məğlubiyyətsiz, 13 qələbə ilə başa vurub. Bu yaxınlarda UFC Həbib "Şöhrət zalı"na daxil edilib və ABŞ-ın keçmiş prezidenti Donald Tramp ona təriflər yağdırıb.

## Qordon "Bakı bacaracaq" dedi, Kasparov isə... -

**ABŞ, eləcə də Qərbin vasitəçiliyi ilə Bakı və İrəvan sülh müqaviləsi imzalayacaq. Azərbaycan Qarabağda iqtisadi möcüzə yaradacaq, erməni əhalisi ilə yaxşı rəftar edəcək və iki ölkə dost olacaq.**

Axar.az xəbər verir ki, bunu ukraynalı jurnalist Dmitri Qordon rusiyalı şahmatçı, keçmiş Bakı sakini Harri Kasparovla müsahibəsində deyib.

Buna cavab olaraq Kasparov bunun real olmadığını bildirib: "Bu, müharibədən sonra ukraynalılarla rusların dostluğu kimi real deyil. Amma bu proses mənim qarşı çıxmadığım ideal seçimdir. Əgər Amerika, AB və Türkiyə buna nail ola bilsə, əla olar. Hansısa variant mümkündür. Türkiyəyə Naxçıvandan Azərbaycana keçid verilə, Ermənistan isə Laçın yolunu ala bilər. Belə bir variant mümkündür və bütün türk hökmdarlarının arzusunda olduğu - İstanbuldan Altaya at sürmək ideyası reallaşar".




**Azərbaycan bu gün Türkiyənin İstanbul şəhərində açılan "İDEF-2023" Beynəlxalq Müdafiə Sənayesi Sərgisində iştirak edir. Bu barədə Musavat.com-a Müdafiə Sənayesi Nazirliyindən məlumat verilib.**

Bildirilib ki, sərgidə Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində istehsal olunan müxtəlif növ atıcı silahlar, yaxın məsafəli döyüş vasitələri, minaatanlar, müxtəlif çaplı döyüş sursatları, pilotsuz uçuş aparatları və s. daxil olmaqla, 131 adda müdafiə təyinatlı məmulatlar nümayiş etdirilir.

Eyni zamanda stenddə Azərbaycan xalqının Ümummilli lideri, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Ulu öndərə həsr edilən "Heydər Əliyev" guşəsi də yaradılıb.

Sərgi zamanı müdafiə sənayesi naziri Mədət Quliyevin Türkiyənin dövlət və hökumət nümayəndələri, sərgidə iştirak edən bir sıra ölkələrin nümayəndə heyətlərinin rəhbərləri ilə görüşləri nəzərdə tutulub.

"İDEF-2023" Beynəlxalq Müdafiə Sənayesi Sərgisi öz işini iyulun 28-dək davam etdirəcək.



## Yağış, dolu yağacaq, 34 dərəcə isti

**Azərbaycan ərazisində iyulun 26-da gözlənilən hava şəraiti haqqında proqnoz açıqlanıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən xəbərə görə, Bakı və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 19-24, gündüz 26-31 dərəcə isti olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Əsasən, şimal və şərq rayonlarında leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Axşama doğru yağıntılar tədricən kəsiləcək. Gecə və səhər bəzi dağlıq rayonlarında duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 19-24, gündüz 29-34, dağlarda gecə 8-13, gündüz 13-18 dərəcə isti olacaq.



## Tanınmışlar Rza Rzayev üçün İnam Kərimova müraciət etdi

**Tanınmış hüquq müdafiəçiləri, mətbuat rəhbərləri və QHT sədrləri aktyor, rejissor və ssenarist Rza Rzayevlə bağlı Ali Məhkəmənin sədri İnam Kərimova müraciət ünvanlayıb. Axar.az xəbər verir ki, müraciətdə xuliqanlıqda ittiham olunaraq, Apelyasiya Məhkəməsi tərəfindən 18 may 2023-cü ildə həbs edilən Rza Rzayev barədə Ali Məhkəməyə edilən kasasiya şikayətinin nəzarətə götürülməsi, işə humanizm prinsiplərindən yanaşılması, aktyorun cəmiyyətdə nüfuzunun nəzərə alınması və onun azadlığa buraxılması xahiş edilir.**

Müraciəti hüquq müdafiəçiləri Novella Cəfəroğlu, Səadət Bənəniyarlı, Səidə Qocamanlı, Rauf Zeyni, jurnalistlər Hacibey Heydərli, Fərid Şahbazlı, Aqil Ələsgər, Elşad Paşasoy, Səbuhi Qafarov, Həbibə Abdulla, QHT sədrləri Əhməd Abbasbəyli, Qorxmaz İbrahimli, Ramil Əliyev, Togrul Allahverdili, Niyamədin Orduxanlı və s. imzalayıb.

Qeyd edək ki, Rza Rzayevin həbsdən azad olunması üçün millət vəkilləri Aqil Abbas, Qüdrət Həsənquliyev və Fazil Mustafa da Ali Məhkəmə sədrinə müraciət ediblər.

Xatırladaq ki, Rza Rzayev may ayının 18-də Tural Mirzəliyev və Ülvi Quliyevin şikayətləri əsasında həbs edilib.

## Bu il verilən ipoteka kreditlərinin həcmi açıqlanıb

**Bu ilin yanvar-iyun aylarında İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) xətti ilə 243,6 milyon manat kredit verilib.**

Mərkəzi Bankdan verilən məlumata görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 12,3% çoxdur.

Hesabat dövründə fondun yenidən maliyyələşdirdiyi kreditlərin məbləği isə 12,5% artaraq 211,8 milyon manat olub.

İl ərzində İKZF-nin istiqraz buraxmaqla cəlb etdiyi vəsaitin məbləği 7,7% artaraq 140 milyon manata çatıb, fonda dövlət büdcəsindən ayrılmış vəsaitin məbləği isə 8% azalaraq 43,8 milyon manata düşüb.

## Bakıda əməliyyat: 25 əcnəbi saxlanıldı

**Bakıda qanunsuz miqrasiyaya qarşı tədbirlər keçirilib, 25 Nepal vətəndaşı saxlanılıb.**

Bu barədə Musavat.com-a Daxili İşlər Nazirliyindən məlumat verilib.

Belə ki, iyulun 24-də Bakı şəhərində müxtəlif ünvanlarda Azərbaycan Respublikasında olma və ya yaşama hüququ verən sənədləri olmayan əncəbilərə qarşı polis əməkdaşları tərəfindən tədbirlər həyata keçirilib.

Daxili İşlər Nazirliyinin Qanunsuz Miqrasiyaya Qarşı Mübarizə İdarəsinin əməkdaşlarının keçirdikləri tədbirlər nəticəsində 25 nəfər Nepal vətəndaşı qeyd edilən qanun pozuntusuna yol verdiyi üçün saxlanılıb. Onlar barəsində Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 575.1.1-ci (Azərbaycan Respublikasında olma və ya yaşama hüququ verən sənədlər olmadan, yaxud qeydiyyatsız yaşama) maddəsinə əsasən protokol tərtib olunub.

Həmin şəxslər barəsində toplanan materiallar aidiyyəti üzrə digər dövlət orqanına təhvil verilib. Araşdırmalar zamanı onların ölkəmizdən tranzit kimi istifadə edərək qeyri-leqal yollarla Avropa ölkələrinə getmək istədikləri müəyyən olunub.

Bu istiqamətdə polis əməkdaşları tərəfindən tədbirlər davam etdirilir.

YENİ MÜSAVAT
N 127 (8263) 26 iyul 2023

# Rusiya paytaxtında daha bir üçlü görüş: Kremlin "yol xəritəsi" varmı?

## Mirzoyan Moskva görüşünə Tehrandan gəldi; erməni nazirdən ənənəvi saxtakarlıq, Lavrovdan isə...



**İyulun 25-də Moskvada Rusiya XİN başçısı Sergey Lavrovun Azərbaycan və Ermənistan xarici işlər nazirləri - Ceyhun Bayramov və Ararat Mirzoyanla danışıqları keçirilib. Rusiya Xarici İşlər Nazirliyinin yaydığı ilkin məlumatda bildirilirdi ki, danışıqlarda Bakı və İrəvan arasında sülh müqaviləsinin hazırlanması ətrafında müzakirələr aparılacaq.**

Yazı çapa hazırlanarkən üçtərəfli görüş yeni başlamışdı. Odur ki, detallar barədə növbəti sayımızda ətraflı məlumatlar verəcəyik. Bundan əvvəl isə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla rusiyalı həmkarı Sergey Lavrov arasında görüş olub.

Musavat.com xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyi məlumat yayıb. Tərəflər Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşma prosesi ilə yanaşı, Moskva və Bakı arasındakı münasibətlər və regional məsələləri müzakirə ediblər.

"Azərbaycanla Ermənistan arasında danışıqlar prosesinin dinamikası yüksəkdir". Məlumata görə, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Rusiya və Ermənistanın xarici işlər orqanlarının rəhbərləri Sergey Lavrov və Ararat Mirzoyanla üçtərəfli danışıqlar başlamazdan əvvəl deyib.

**O qeyd edib ki, xarici işlər nazirləri sonuncu dəfə iki aydan bir qədər çox əvvəl görüşüblər, o vaxtdan bəri çoxlu sayda görüşlər, müxtəlif səviyyələrdə təmaslar olub.** "Danışıqlar prosesinin dinamikası kifayət qədər yüksək olsa da, nəticələr dinamikadan bir qədər aşağıdır. Amma ümumiyyətlə, müsbət nəticənin olmadığını demək düzgün deyil", - deyə Bayramov bildirib.

Səfər çərçivəsində Rusiya xarici işlər naziri Sergey Lavrovla ikitərəfli görüşün, eləcə də Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında "Sülh və Dövlətlərarası Münasibətlərin Qurulması haqqında ikitərəfli Saziş" layihəsi üzrə danışıqların növbəti raundunun keçirilməsi nəzərdə tutulmuşdu.

Rusiya XİN başçıları səviyyəsində görüşə ev sahibliyi etmək niyyətini Brüssel görüşündən dərhal sonra açıqlamışdı. Azərbaycan Prezidenti İlham Əliyev iyulun 21-də Şuşada görüşlə bağlı anons vermişdi. Nazirlər son dəfə ötən ayın sonunda Vaşinqtonda ABŞ dövlət katibi E.Blinkenin vasitəçiliyi ilə bir araya gələrək, 3 gün ərzində danışıq aparıblar.

Odur ki, məntiqli şəkildə ortaya suallar çıxır: bəs növbəti Moskva görüşü nə vəd edir, konkret gündəm varmı? Varsa, bu Vaşinqton-Brüssel gündəliyi ilə nə dərəcədə üst-üstə düşür? Ümumiyyətlə, Rusiyanın iki ölkə arasında sülh anlaşmasına gətirəcək "yol xəritəsi" mövcuddurmu, yoxsa söhbət yenə danışıq xətrinə danışıqdan, Kremlin "quş qoymaq" taktikasından gedir?

"Hazırda üç beynəlxalq tərəf var ki, bu prosesə (Ermənistanla Azərbaycan arasında normallaşma prosesinə - red.) dəstək olurlar - ABŞ, Rusiya və Avropa İttifaqı. Azərbaycan üç istiqamət üzrə tam səmimiyyətlə bu prosesə qatılıb və nəticəyönümlü yanaşma ortaya qoyur. Lakin indiyədək bir nəticə yoxdur".

**Bunu İlham Əliyev iyulun 21-də Şuşada Qlobal Media Forumunda etdiyi çıxışında söyləyib.**

"Düşünürəm ki, Ermənistan son bir addım atmalıdır. Onlar artıq müharibədən sonra bir sıra addımlar atıblar və mən deməzim ki, bu addımlar könüllü olaraq atılıb. Son iki il yarım ərzində bir neçə məqam olub. Onlar Ermənistana birbaşa nümayiş etdirdi ki, onlar bizim ərazim bütövlüyümüzü tanımasalar, biz onların ərazi bütövlüyünü tanımayacağıq. Bunun onlar üçün nə məna daşıdığı kifayət qədər aydındır. Onlar artıq qəbul ediblər ki, Qarabağ Azərbaycandır, bunu açıq şəkildə bəyan ediblər və artıq sənədə imza atmaq mərhələsidir. Bu, sırf mühüm sonuncu məqamdır", - deyə dövləti başçısı diqqətə çatdırıb. Eyni gündə Ermənistan baş nazirin Nikol Paşinyan "Frans Press" agentliyinə müsahibəsində deyib ki, "sülh müqaviləsi imzalanana və hər iki ölkənin parlamentləri tərəfindən ratifikasiya olunana qədər Azərbaycanla yeni müharibə ehtimalı yüksəkdir".

Elə isə Nikol Paşinyan nəyi gözləyir, nədən Bakı ilə sülh müqaviləsini imzalamaqdan yayınır? Rusiyadan, yoxsa ölkəsindəki radikal-revanşist qüvvələrdən çəkinir? Bəs Rusiya? Doğrudanmı o, sülhdə Qərbdən daha çox maraqlıdır? Elə isə nədən nizamlama prosesində irəliləyiş görmürük?

Bu da maraqlıdır ki, nazirlərin Moskva görüşü ərəfəsi (iyulun 21-i) Rusiya XİN-in Azərbaycan-Ermənistan danışıqlarında xüsusi nümayəndəsi İqor Xovayev İrəvanda olub (Bakıya gəlmədi). O halda maraqlıdır, Xovayevin səfəri və nazirlərin qarşıdakı Moskva sammiti arasında hər hansı bağlılıq varmı? İyulun 24-də - Moskva görüşündən cəmi bir gün öncə isə Ararat Mirzoyan İrana səfər edib. İranlı həmkarı ilə görüşən Mirzoyanı İran İslam Respublikasının Prezidenti İbrahim Rəisi də qəbul edib. Görüş zamanı Ermənistan-İran çoxşaxəli əməkdaşlığı ilə bağlı məsələlər müzakirə olunub. İddialı ikitərəfli gündəliyin həyata keçirilməsi, əldə olunmuş razılaşmaların yüksək səviyyədə həyata keçirilməsi ətrafında fikir mübadiləsi aparılıb. Bu kontekstdə xüsusilə iki ölkə arasında ticarət-iqtisadi, enerji və nəqliyyat sahələrində cari və planlaşdırılan birgə layihələrin həyata keçirilməsinin vacibliyi vurğulanıb. Ararat Mirzoyan və İbrahim Rəisi regional təhlükəsizliklə bağlı məsələlərə də diqqət yetiriblər. Nazir Mirzoyan İran prezidentinə Ermənistan-Azərbaycan münasibətlərinin nizamlanması prosesindəki son hadisələri təqdim edib, həmçinin Ermənistan tərəfinin Cənubi Qafqazda davamlı sülhün bərqərar olması ilə bağlı baxışını təsdiqləyib. Məlumata görə, problemlərin güc tətbiqi və ya güc təhdidi, maksimalist və düşmənçilik ritorikası yolu ilə həllini istisna etməyin zəruriliyi vurğulanıb. Ararat Mirzoyan Laçın yolu ilə bağlı da şikayətlənib. İstisna deyil ki, Ermənistan XİN rəhbəri "nəfəslik ölkə"nin rəhbərliyindən təlimatlar alıb. Moskvaya da o, birbaşa Tehrandan gəlib.

**Deputat Ceyhun Məmmədov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın həyata keçirdiyi uğurlu xarici siyasət nəticəsində müharibədən əvvəl müşahidə olunan durğunluğa artıq son qoyulub:** "Hazırda həm ABŞ, həm Rusiya, həm də Avropa İttifaqı keçmiş münaqişənin həlli üçün sanki yarışa giriblər. Bütün hallarda harada aparılmasından asılı olmayaraq, danışıqların davam etdirilməsi çox önəmlidir. 30 ildən bəri yığılıb qalmış münaqişənin tez bir zamanda həllinə nail olmaq çox çətindir. Çünki xeyli razılaşdırılası məsələlər var. Ancaq düşünürəm ki, zamanla yekun nəticəyə nail ola biləcəyik. Nəticəyə gəldikdə, hamıya məlum olduğu kimi, bir çox dövlətlər kimi, usiyanın da bölgədə ma - raqları var və rəsmi Moskva bu maraqlar çərçivəsində münaqişənin həllinə nail olmağa çalışır. Buna paralel, Rusiya kommunikasiyaların açılmasında maraqlı olsa da, regionda gərginliyin tam azalmasında maraqlı deyil. Rusiya rəsmilərinin son günlər səsləndirdiyi fikirlər bu maraqların təmin olunmasına zəmin yaratmaq məqsədi daşıyırdı".

**Ermənistan XİN rəhbərinin Moskva görüşündən əvvəl İrana səfər etməsi məsələsinə gəldikdə, C.Məmmədovun sözlərinə görə, buradan aydın olur ki, rəsmi İrəvan keçmiş münaqişə ilə bağlı bütün qərarları İranla da razılaşdırır:** "Bütün danışıqların nəticəsi barədə İrana da məlumat verilir. Yeni rəsmi İrəvan İranın razılığı olmadan qərarlar qəbul etmir. Eyni zamanda düşünürəm ki, Azərbaycan bütün proseslərə təmkinlə və soyuqqanlı şəkildə yanaşaraq prosesdə fəal iştirak edir. Zamanla Azərbaycan heç şübhəsiz ki, bütün məqsədlərinə nail olacaq. O gün uzaqda deyil".

Yazı çapa hazırlanan zaman informasiya kanallarında üçlü görüşlə bağlı bəzi açıqlamalar yayıldı. "Rusiya Bakı ilə İrəvan arasında sülh müqaviləsinin razılaşdırılmasına hər cür kömək etməyə hazırdır".

Bunu **Rusiyanın xarici işlər naziri Sergey Lavrov** Azərbaycan və Ermənistan xarici işlər nazirləri ilə danışıqlarda deyib.

Onun sözlərinə görə, Azərbaycan, Rusiya və Ermənistan liderləri tərəfindən baxılmaq üçün bir sıra əlavə sənədlər hazırlanır. O, həmçinin qeyd edib ki, Rusiya Federasiyası Cənubi Qafqazda sülh və sabitlikdə "həyati dərəcədə" maraqlıdır. "Rusiya tərəfdarıdır ki, Rusiya Federasiyası, Azərbaycan və Ermənistan liderləri arasında üçtərəfli sazişlərə "hörmət edilsin və həyata keçirilsin", - Lavrov əlavə edib.

**Erməni mediasının yazdığına görə, Ermənistanın XİN başçısı A.Mirzoyan isə İrəvanın Bakı ilə danışıqlarda konstruktiv olduğunu iddia edib.**

"Bəzi məsələlərdə konkret nəticələr, bəzilərində razılıq əldə etmək perspektivləri var, lakin tərəflərin mövqelərinin hələ də uzaq olduğu problemlər var" - Mirzoyan deyib.

Ermənistanın baş diplomatı növbəti dəfə yersiz iddialar səsləndirib. Guya "Laçın dəhlizinin bağlanması və Dağlıq Qarabağın blokadaya alınması"nın "danışıqları çətinləşdirdiyini" iddia edib.

"Vəziyyət əsl humanitar fəlakətə yaxındır... Əgər biz həll yolu tapa bilməsək, Azərbaycan blokadanı dayandırmasa, o zaman humanitar fəlakət danışıqlar prosesi üçün mənfi nəticələrə səbəb olacaq" - Ermənistan XİN rəhbəri ənənəvi saxtakarlığını və iftiralarını davam etdirib.

Əgər Mirzoyan "konstruktivlik" buna deyirsə, onda mövqe məlumdur...

Mövzuya qayıdacağıq.

❑ **E.PAŞASOY, "Yeni Müsavat"**

# Düşmən dəyirmanına su tökən milli satqınlar, “sapı özümüzdən olan baltalar”, “5-ci kolon”çular...

**Prezident İlham Əliyevin cari ilin 21 iyul tarixində “4-cü Sənaye İnqilabı dövründə Yeni Media” mövzusunda Şuşa Qlobal Media Forumunun açılış mərasimində əhatəli çıxışı daxilə və xarici bir sıra mühüm mesajları ilə yadda qaldı. O sırada ölkə başçısı 2-ci Qarabağ müharibəsindən sonra Azərbaycana qarşı mümkün təhdidlərdən də söz açdı.**

“Torpaqlarımızı azad edəndən sonra ölkəmizə qarşı potensial təhlükə görmürük. Daxildə hər hansı təhlükə yoxdur, ölkə sabitdir, cəmiyyətdə həmrəyliyin səviyyəsi heç vaxt olmadığı qədər yüksəkdir, ölkənin iqtisadi inkişafı olduqca təsirlidir. Azərbaycanın iqtisadiyyatı özünü təmin edir, biz öz resurslarımızla özümüzü təmin edirik və

haribədəki tarixi Zəfərimizin bir mühüm şərti də daxili sabitlik, bütün sağlam ictimai-siyasi qüvvələrin hakimiyyət ətrafında yumruq kimi birləşməsi idi. Elə bu səbəbə xaricdəki erməni lobbisinə bağlı məkrli çevrələr yenə daxili vəhdətimizi pozmağa, ölkədə xaos, anarxiya yaradıb öz çirkin məqsədlərinə çatmağa çalışırlar. Bu yöndə fantastik paralar xərcləyirlər - xüsusən də “sapı özümüzdən olan baltalar”a, milli satqınlara, Azərbaycan daxilində özlərinə

bəzən isə dərhal reaksiya verir. Lakin cəmiyyət sanki hər şey həll olunmuş kimi kənarda saxlanılır və təbii ki, bu məsələdə müəyyən dövlət qurumlarının da günahı var, çünki cəmiyyəti bu dərəcədə arxayınlaşdırmaq olmaz.

Prezident də bu məsələyə diqqət çəkərək, bu qədər arxayın, laqeyd, özünü sanki problemləri həll olunmuş Lüksemburq camaatı kimi aparan xalqın laqeydliyinin hansı təhlükəyə gətirib çıxara biləcəyini vurğulayıb. Çünki həm döv-

lər o qədər də geniş deyil. Misal üçün, Prezident bildirdi ki, ölkədə baş verən prosesləri sosial şəbəkə üzərindən izləyir, yaxınları, ailə üzvləri ona məlumat verir. Görünən budur ki, Prezidentin müxtəlif təbəqələrdən aldığı məlumatlarla nisbətdə məmurlardan aldığı məlumat azdır və bu olduqca təhlükəlidir. Çünki bir çox məsələləri çatdırmadan imtina edir, gizlədirlər. Şəbəkələşmə o qədər genişdir ki, heç kim bir-birinin marağına toxunacaq informasiyanı ver-





## **Fazil Mustafa:** "Azərbaycan üçün ən böyük təhlükə xalqın, cəmiyyətin laqeydliyidir"
## **Tural Abbaslı:** "Daha təhlükəli daxildəki "5-ci kolon"çular və ideoloji boşluqdur"

yaxşı idarəçilik mövcuddur" - İlham Əliyev vurğuladı.

**Bununla belə, Prezident qeyd etdi ki, xalq olaraq biz ayıq-sayıq olmalı, keçmişimizi unutmamalıyıq:** “Unutmamalıyıq ki, qonşularımız tərəfindən kürəyimizə bıçaq sancıldı, gözlənilmədiyi anda qonşularımız kürəyimizə bıçaq sancdı və o zaman Azərbaycanda olan xaosdan istifadə edərək ərazilərimizi işğal etdi. Eyni zamanda biz unutmamalıyıq ki, İkinci Qarabağ müharibəsinin nəticələrinə baxmayaraq, bu gün Ermənistan cəmiyyətinin, hətta hökumətinin tərkibində müəyyən insanlar var ki, hələ də revanşist ideyalarla yaşayır və onlar bunu gizlətmirlər. Ona görə biz hər hansı bir ssenariyə hazır olmalıyıq. Bu məqsədlə biz İkinci Qarabağ müharibəsi bitən kimi, möhtəşəm Zəfərimizi nümayiş etdirən kimi dərhal yenidən müdafiə sahəsində dərin islahatlar həyata keçirməyə başlamışıq. Mən artıq bunu ictimai şəkildə bəyan etmişəm. Bu gün ordumuz üç il əvvəlki ordudan daha güclüdür”.

Sözsüz ki, 44 günlük mü-

bağlı “5-ci kolon”çulara.

İlham Əliyev çıxışında bunu təsadüfən demədi ki, Ermənistan məhz Azərbaycandakı xaosdan istifadə edərək, torpaqlarımızı işğal etmişdi. Halbuki cəmi 44 günə biz düşmənin mifik “məğlubedilməz” ordusunu darmadağın etdik. Nəyin, hansı faktorların hesabına - məlum.

Bəs Azərbaycandakı vətəndaş həmrəyliyinə, milli birliyimizə hazırda ən böyük təhlükə nədir? Dövlət, hakimiyyət, hökumət və cəmiyyət olaraq nələrə daha çox diqqət etməliyik?

**Mövzu ilə bağlı millət vəkili Fazil Mustafa “Yeni Müsavat”a danışıb. Deputat qeyd edib ki, dövlət təhlükəsizliyinə ən böyük təhlükə xalqın, cəmiyyətin laqeydliyidir:** “Təbii ki, düşmən hər zaman işləyir, cənubdan, şimaldan ayrı-ayrı şəbəkələr formalaşdırır, Azərbaycanın müstəqilliyini təhdid edən xüsusi addımlar atır. Bunlar hər zaman olub və bundan sonra da olacaq.

Dövlət də bu istiqamətdə müəyyən qabaqlayıcı addımlar atır, bəzən buna gecikir,

lət müstəqilliyi, həm də xarici təhlükə üçün cəmiyyətin səfərbərlik potensialını ortaya qoya bilmirik. Məsələn, ölkəyə kütləvi şəkildə narkotik vasitələr buraxılır, amma kimsə qonşunun və yaxınlarının bu prosesdə iştirak etdiyi bilsə də susur, müşahidəçi qalır. Və yaxud qonşu ölkələrin casus şəbəkələrinin ölkədə fəaliyyətinə hamı müşahidəçi kimi izləyir, düşünür ki, bunun qarşısını almaq yalnız dövlətin borcudur. Yəni cəmiyyət bu məsələdə tamamilə kənardadır. Ona görə də düşünürəm ki, Azərbaycan üçün ən böyük təhlükə xalqın, cəmiyyətin laqeydliyidir. Bu təhlükə dövlətin əldə etdiyi böyük uğurları sıfırlaya bilər. Məsələn, müharibədən sonra müşahidə etdik ki, rüşvətdə həyasızlıq pik həddə çatdı, korrupsiya daha çox genişlənməyə başladı. Əslində isə mənəvi bir dəyişim baş verməli idi. Bəs niyə bu baş vermədi? Niyə cəmiyyətdə pis şeylər dəyişmədi?

Prezidentin Şuşa Media Forumunda çıxışlarından da məlum oldu ki, ölkə başçısının məlumat ala biləcəyi xət-

mək istəmir. Məlum məsələdir ki, Prezident eyni vaxtda bütün sahələri görə bilməz. Ona görə də nöqsanlar çözülməmiş qalır.

Fikrimcə, bu məsələdə böyük problem var və biz bu problem barəsində düşünməliyik. Prezidentin verdiyi mesajlar da buna yönəlik idi. Təbii ki, ordumuz güclüdür, amma ordu, müxtəlif hüquq-mühafizə orqanları ilə bağlı məsələnin nəzarət tərəfini daha da gücləndirməliyik ki, orada neqativ hallar baş verməsin, uğurlarımıza kölgə salacaq davranışlar ortaya çıxmasın".

**AĞ Partiya sədri Tural Abbaslı isə bildirdi ki, Prezidentin dediyi kimi, ölkəmizə qarşı potensial təhlükə olmasa da, Azərbaycanın yerləşdiyi coğrafi mövqe onun hər zaman diqqətdə, ayaq üstə, ayıq-sayıq olmağı tələb edir:** “Bu həm hərbi, həm də siyasi-sosial baxımından diqqətdə olmalıyıq. Çünki şimaldan qonşumuz Rusiyadır, hansı ki, həmişə işğalla, başqa suveren ölkənin ərazisinə müdaxilə edir, hüquqlarını tapdalayır, digər tərəfdən, qonşumuz “Şeytan üçbucağı” deyilən İrandır, hansı ki, bu dövlət üçün də beynəlxalq hüquq anlayışı demək olar ki, yoxdur. Həmçinin digər məlum qonşumuz Ermənistandır, hansı ki, Azərbaycan ərazisini illərlə işğalda saxlayıb, dağıdıb, soyqırımlar törədib. Belə bir coğrafi ərazidə yaşayırıqsa, əlbəttə ki, hər zaman ayıq olmalıyıq.

Mən ordumuza arxayınam və orduda gedən islahatlara inanıram, ümid edirəm ki, ordumuz Türkiyə modeli üzrə qurulacaq və regionda ən güclü ordu olacaq, Azərbaycanın təhlükəsizliyini təmin edəcək. Lakin daha təhlükəli daxildə ola biləcək “5-ci kolon”çulardır, hansı ki, onlar müxtəlif adlar altında qruplaşır.

Məsələn, bəziləri din pərdəsi, bəziləri demokratiya, insan haqları adı altında qruplaşır, bəziləri isə maddi maraq və özünü daha çox rusiyapərəst görmək arzusunda olan insanlardır. Bu baxımdan, milli həmrəyliyin qorunması üçün addımlar atılmalıdır və burada daha çox iş iqtidarın üzərinə düşür. Belə ki, daxili çəkişmələr, milli maraqları üstələməməlidir. Məsələn, iqtidara mən gələcəm, filankəs getməlidir deyib, bütün dövlət maraqlarını qurban vermək olmaz. Bu baxımdan, iqtidar bəzi addımlar atmalıdır.

Həmçinin düşünürəm ki, cəmiyyətimiz bu məsələlərdə çox həssas olmalıdır, necə ki, 44 günlük Vətən müharibəsində hər kəs birlik nümayiş etdirdi, bir nəfər belə kənara çıxmadı, o cümlədən mediadan, sadə vətəndaş cəmiyyətindən. Bu siyasəti davam etdirmək etmək lazımdır. “Dövlət baba” dediyimiz anlayış ilk addımı atmalıdır ki, düşmən daxildən hansısa nifaqlar sala bilməsin, hansı ki, biz bunun zaman-zaman müxtəlif təzahürlərini görmüşük. Məsələn, Avropadan soroçular, İrandan xomeyniçilər, Rusiyadan isə mədəniyyət adı altında bizə yeritdikləri bir xətt və sairə. Düşünürəm ki, bu məsələdə dövlət məlum addımları atmalıdır.

O ki qaldı hazırda milli birliyimizə qarşı hazırda ən böyük təhlükənin nədən ibarət olmasına, bunu ideoloji boşluqda görürəm. Azərbaycanın milli ideoloji bir dəyər kompleksinin tam formalaşmadığını düşünürəm. Yəni biz Qərb, yoxsa Şərq, multikulturalıqmı və sairə. Dövlət ideologiyasının tam müəyyən olunmaması və bu istiqamətdə addımların atılmaması təhlükədir. Çünki insanları hansısa dəyər ətrafında toplamaq lazımdır bu dəyərlər hələ ki tam formalaşmayıb".

❑ **Xalidə GƏRAY, “Yeni Müsavat”**



## Qubad İbadoğlu Bakı İstintaq Təcridxanasına köçürüldü

**Sərağagün həbs edilən Azərbaycan Demokratiya və Rifah Partiyasının sədri Qubad İbadoğlu Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin 1 saylı Bakı İstintaq Təcridxanasına köçürülüb.**

“Report”un əldə etdiyi məlumata görə, o, bundan sonra Bakı İstintaq Təcridxanasında saxlanılacaq.

Qeyd edək ki, Nərimanov Rayon Məhkəməsinin hakimi Vüsal Qurbanovun sədrliyi ilə keçirilən prosesdə Q.İbadoğlu barəsində 3 ay 26 günlük həbs-qətimkan tədbiri seçilib.

O, Cinayət Məcəlləsinin 204.3.1 (saxta pul və ya qiymətli kağızlar hazırlama, əldə etmə və ya satma mütəşəkkil dəstə tərəfindən törədildikdə) maddəsi ilə təqsirləndirilir.

Xatırladaq ki, Daxili İşlər Nazirliyinin məlumatına görə, Türkiyə Daxili İşlər Nazirliyindən daxil olan informasiya əsasında Azərbaycanda FETÖ ilə əlaqəli olan şəxslərə qarşı əməliyyat tədbirləri keçirilib. Tədbirlərlə saxlanılan 5 nəfərdən biri Q.İbadoğlu ilə əlaqəsinin olması barədə ifadə verib. Həmin ifadə əsasında Q.İbadoğlunun ofisində axtarış aparılıb, iş üzrə zəruri əhəmiyyət kəsb edən sənədlər aşkarlanıb, və Q.İbadoğlu saxlanılıb.

YENİ MÜSAVAT
N 127 (8263) 26 iyul 2023

# Erməni radikalların qorxunc ssenarisi - Bakı antiteror əməliyyatını tezləşdirə bilər

## Təhlükəsizlik üzrə ekspert: "Ermənilər unutmasınlar, sülhdən imtinanın nə ilə sonuclanacağı məlumdur..."

**Erməni daşnakları, radikal-revanşistlər, Qarabağda erməni sakinləri girov saxlayan xuntaçılar xarici havadarları ilə birgə Azərbaycanın öz ərazisində öz suverenliyini tam bərpasını əngəlləmək üçün faktiki son döyüşə çıxıblar. Bu yöndə onların hər cür alçaqlıqlara gedə biləcəyi gərək diqqətdən yayınmasın.**

Məsələn, son məlumatlara görə, Qarabağdakı separatçılar növbəti təxribatlara hazırlaşırlar. Bu barədə "Bez Tormozov" məlumat yayıb.

Belə ki, yayılan səs yazısında Fransa vətəndaşı olan "Daşnaksütyun" üzvü təxribatın mahiyyətini açıqlayır. Onun sözlərinə görə, dünyanın diqqətini Qarabağa yönəltmək üçün "qurbanlar" verilməlidir. Erməni terrorçu öz millətindən olan sakinlərin məhv edilməsi və bununla dünyada Azərbaycana qarşı təbliğat aparılmasından bəhs edir.



Yəni bir neçə erməni öldürülür və cinayəti Azərbaycan tərəfinə atmaq üçün erməni təbliğat maşını ənənəvi qaydada işə salınır. SSRİ KQB-si və ermənilərin 1988-ci ilin fevralında birgə törətdikləri Sumqayıt hadisələri yada düşür (bəllidir ki, o zaman 26 erməninin qətli ilə nəticələnən talanlara erməni Eduard Qriqoryan başçılıq eləmişdi).

Rusiya "sülhməramlı" qüvvələrinin müvəqqəti nəzarətində olan ərazidə 10 minə yaxın erməni quldur-terrorçu da əslində potensial eduard qriqoryanlardır.

Belə bir təxribata cəhd edilə bilərmi və onu önləmək üçün indidən nələr etməliyik? Bəlkə antiterror əməliyyatını tezləşdirək?

**Deputat, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Arzu Nağıyev "Yeni Müsavat"a deyib ki, ermənilərin davam edən təxribatları birmənalı şəkildə 10 noyabr 2020-ci ildə imzalanan üçtərəfli bəyanatın pozulması, qarşı tərəfin üzərinə götürdüyü öhdəliklərə ziddir:** "Regionda sülhün bərqərar olması yalnız qeyri-qanuni erməni silahlı birləşmələrinin ərazini tərk etməsi ilə mümkün ola bilər. Əks halda, Azərbaycan antiterror əməliyyatlarına başlayacaq. Xankəndidə baş verənlər oradakı xuntanın əməlləridir. Orada yaşayan ermənilər də həmin xuntanın girovuna çevriliblər. Ermənistan hakimiyyəti və erməni kütləvi informasiya vasitələri qanunsuz silahlıları polis, yerli əhali və s. formada təqdim etməklə təxribata xidmət edirlər. Buna son qoyulmalıdır. Əks halda, Azərbaycan antiterror əməliyyatına başlayacaq. Qarşı tərəf sülh prosesini pozmaq üçün bütün vasitələrdən istifadə edir. Bu, onlara çox ağır, məhvedici zərbəni labüd edir. Ermənilərin yaşadıqları ərazilər Azərbaycan əraziləridir. Orada hər hansı status yoxdur və olmayacaq.

Ermənistanın silahlandırdığı qanunsuz birləşmələrin hamısı terrorçulardır. Müxtəlif ad altında gizlənərək, Azərbaycana qarşı təxribat törədirlər. Üçtərəfli bəyanatın əsas müddəalarından biri qanunsuz hərbi birləşmələrin ərazini tərk etməsidir. Bu sənədə imza atan hər bir dövlət özünə və rəhbərlik etdiyi dövlətin imzasına hörmətlə yanaşmalıdır. 10 noyabr bəyanatının bütün müddəaları həyata keçirilməlidir. Ermənilərin bu təxribatlarını davam etdirmələri heç bir müsbət nəticə verməyəcək. Bunun ağrı-acısını çəkmək məcburiyyətində qalacaqlar".

**Deputat bildirib ki, sülhməramlılar üzərlərinə düşən vəzifələri tam olaraq yerinə yetirmirlər:** "Azərbaycan nə qədər sülhə cəhd etsə, bunun üçün çalışsa da, nə separatçı qondarma qurumun tör-töküntüləri, nə də Ermənistan rəhbərliyi bunu istəyir. Hər danışıqdan sonra əks-bəyanatlar verirlər, təxribata əl atırlar, sərhəddə atəşkəsi pozurlar. Ermənilər unutmasınlar ki, sülh istəməyəcəklərsə, hər şeyin sonunda hərbi yolla həlli də mümkündür. Bunu 44 günlük müharibədə göstərdik, ermənilərin illərlə yaratdığı mif darmadağın oldu. Onlar bu gün oturub düşünməlidirlər ki, atdıqları addımlar nə ilə nəticələnə bilər. Sonra gec olacaq".

**Deputat hesab edir ki, beynəlxalq qüvvələr erməni təxribatlarına adekvat reaksiya verməlidir:** "Təxribatlar, insidentlər ermənilər üçün olduqca acınacaqlı nəticələrlə yadda qalacaq. Bunu unutmasınlar və bunun tək regiona deyil, bütün dünyaya təsiri olacağını da göz önünə alsınlar. Nəticə çıxarsınlar ki, istənilən müharibə dolayı yolla da olsa, bu və ya digər dövlətə necə təsir edir?! Ona görə, fikrimcə, beynəlxalq səviyyədə bu məsələlərə qəti qiymət verilməlidir. Xüsusilə Rusiya dərhal Ermənistana öz təzyiqini və təsirini göstərməlidir. Avropa Birliyi, Amerika və digərləri başa düşməlidirlər ki, proses nə ilə nəticələnə bilər.

Azərbaycan ərazilərindəki bütün təxribatların məsuliyyəti birmənalı şəkildə ermənilərin öz üzərinə düşür. Cavabdeh özləridir, bu addımlara görə də Azərbaycan qanunları əsasında ən sərt cəzaya çatdırılacaqlar. Qarşıdurmanın səbəbkarı ermənilərdir. Statusu olmayan, silahlandırılmış qurumun adı nədir? Beynəlxalq səviyyədə bunu necə adlandırmaq olar? Əgər başqa niyyətləri olmasaydı, digər yollardan istifadə edərdilər. Ona görə də bu təxribatların adekvat cavabı verilməlidir, veriləcək".

**Ekspertə görə, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasını və ümumiyyətlə, regionda sülh olmasını istəməyən qüvvələrin sayı kifayət qədərdir**: "Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması ilə hər iki ölkəyə təzyiq imkanlarını itirəcəyini dərk edən Rusiya bunu həm də Cənubi Qafqazdakı mövqelərini itirmək təhlükəsi kimi qiymətləndirir. Çünki sülh varsa, o zaman nə sülhməramlı kontingentə, nə də Ermənistandakı hərbi bazaya ehtiyac qalmır. Rusiyanın regiondan sıxışdırılması və Cənubi Qafqazda bu və ya digər şəkildə təmsil olunmaq istəyən digər beynəlxalq güclər isə münaqişənin uzanmasına öz maraqlarının təmin etmək imkanı kimi baxırlar. Odur ki, müxtəlif dairələr bir tərəfdən Ermənistandakı revanşist qüvvələri hərəkətə keçirməklə Paşinyana təzyiq edir, digər tərəfdən isə atəşkəsin pozulmasını stimullaşdırmaqla sülh prosesini uzatmağa cəhdlər edirlər.

Qısası, həm ABŞ, həm Rusiya, həm də Avropa İttifaqının ayrı-ayrı təmsilçiləri, xüsusilə də, Fransa Azərbaycanla Ermənistanın münasibətlərinə yalnız öz maraqları prizmasından yanaşırlar. Azərbaycan olaraq biz təbii ki, həm hərbi, həm də siyasi baxımdan Ermənistanın təxribatlarının qarşısını almaq gücündəyik və bunu da edirik. Biz tezliklə sülh sazişinin imzalanmasında maraqlıyıq, çünki sülhün həm ölkəmizə, həm də ümumiyyətlə, regionun inkişafına təkan verə biləcəyini yaxşı başa düşürük. Baş tutacaq sülhdən ən çox faydalana biləcək Ermənistan isə öz dövlət maraqlarını deyil, ayrı-ayrı güclərin maraqlarını təmin etməyə çalışdığı üçün proses uzanır və təxribatlar baş verir. Amma həm Ermənistan, həm də sülhə mane olan ayrı-ayrı dövlətlər bir şeyi unudurlar ki, Azərbaycanın bundan sonra daha 30 il danışıqlar aparmaq kimi bir niyyəti yoxdur. Və təxribatların davam edəcəyi, mövqelərimizin hədəfə alınacağı, Qarabağdakı erməni hərbi birləşmələrinin xoşluqla ərazilərimizi tərk etməyəcəyi halda yeni hərbi əməliyyatlara başlamaq qaçılmaz olacaq. Bundan isə ən çox zərərçəkən yenə elə Ermənistan olacaq".

❑ **Elşən MƏMMƏDƏLİYEV,
"Yeni Müsavat"**

# Xəzər bir gündə 3 gənci uddu - boğulanların çoxu niyə cavanlardır?

## "Çimərlikdə sağ qalmaq üçün üzə bilmək əsas şərt deyil..."



**Qışda dəm qazı, yayda suda boğulmalar. Yol qəzaları da ki, yay-qış bilməz. Vaxtaşırı edilən xəbərdarlıqlara rəğmən, təəssüf ki, hər il eyni acı mənzərə bu və ya başqa şəkildə təkrarlanır. Xəbər verildiyi kimi, iki gün öncə Siyəzəndə 3 nəfər dənizdə boğulub. Məlumata görə, onlardan ikisi yeniyetmədir. Üçüncü şəxsin isə tələbə olduğu bildirilir. Bəs gənclərin ölümünə nə səbəb olur?**

**FHN Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin İctimaiyyətlə əlaqələr və təbliğat şöbəsinin rəisi daxili xidmət polkovnik-leytenantı Aqşin Əlili** mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb:

"Ümumiyyətlə, suda boğulma, ölümlə nəticələnən hadisələrə nəzər salsaq, bu hadisələrin nəzarətsiz çimərliklərdə və çimərlik fəaliyyəti kimi nəzərdə tutulmamış suvarma kanallarında, süni göllərdə, çaylarda baş verdiyinin şahidi olarıq. Mövsümqabağı bu barədə vətəndaşlara müraciət edərək bildirmişdik ki, çimərlik seçimində diqqətli olmaq lazımdır. Yəni əgər hansısa bir çimərlikdə xilasedicilər yoxdursa, bu, həmin ərazidə təhlükəsizlik tədbirlərinin görülmədiyinə işarədir. Bu kimi yerlərdən çimərlik kimi istifadə etməkdən çəkinmək lazımdır. Məlum məsələdir ki, suvarma kanalları, süni göllər, çaylar çimərlik məqsədi üçün inşa edilməyib, bu baxımdan bu kimi ərazilər olduqca təhlükəlidir".

**Aqşin Əlili qeyd edib ki, hətta peşəkar üzgüçülər belə bəzən çimərlikdə boğulma təhlükəsi ilə üz-üzə qalır:** "Bu baxımdan "Mən üzə bilirəm və dənizdə sağ qalacam" yanaşması yanlışdır. Doğrudur, üzmə bacarığı insana müəyyən dərəcədə kömək edə bilir, lakin çimərlikdə sağ qalmaq üçün üzə bilmək əsas şərt deyil. Biz hər zaman vətəndaşlara müraciət edirik ki, çimərlik seçimində diqqətli olsunlar. Küləkli havada, dalğalı dənizdə, xüsusən də küləyin sürəti 10 metrdən artıq olduqda çimərliyə getmək olmaz, bu, olduqca təhlükəlidir. Həmçinin üzmə nişanlarını dənizə doğru ötüb keçməsinlər. Bəzən gənclər üzmə sərhədlərini müəyyən edən nişanları ötüb keçərək daha uzaq məsafəyə üzməyə çalışır, hətta bunu fəxrlə digərlərinə nümayiş etdirirlər ki, bu da sözsüz ki, boğulmaya səbəb olan amillərdən biridir".

**Mütəxəssisin sözlərinə görə, çimərlik mövsümü başlayandan, yəni iyunun 15-dən bu günədək 78 suda boğulma təhlükəsi ilə üzləşən şəxs FHN əməkdaşları tərəfindən xilas edilib. O, həmçinin bildirib ki, qurumun nəzarət etdiyi çimərliklərdə ölümlə nəticələnən suda boğulma hadisəsi qeydə alınmayıb**: "Bu, bir daha onu deməyə əsas verir ki, nəzarətdə olan çimərliklərdən istifadə edilməli və ərazidə tətbiq olunmuş təhlükəsizlik qaydalara əməl olunmalıdır. Unutmayaq ki, qaydalar biganəlik həyatımız üçün təhlükədir. Təhlükə zamanı 112-yə zəng edin".

Bəs boğulmuş şəxsə necə yardım göstərməli?

**Mütəxəssislər tövsiyə edir ki, boğulmuş şəxs sudan çıxarıldıqdan sonra vəziyyətinə uyğun yardım göstərilməlidir:** "Belə ki, zərərçəkmişin huşu özündədirsə və nəbzi normal vurursa, onu başıaşağı sərt döşək üzərində uzatmaq, quru dəsmalla ovxalamaq və geyindirmək lazımdır. Zərərçəkmişə isti içki, çay, kofe verib, isti yorğanla bürümək lazımdır. Huşu özündə deyilsə, amma nəbzi normal vurursa, normal nəfəs alırsa, bu zaman onu başıaşağı meylli uzatmaq, çənəsini açıb ağzında olan lil və qusuntuları təmizləmək, daha sonra qurulayıb, isitmək lazımdır. Suda batan şəxsin huşu özündə deyilsə, tənəffüsü və ürəyi dayanıbsa, ona süni nəfəs verib, ürək masajı etmək məqsədəuyğundur. Tənəffüs yollarından maye çıxarmaq üçün yardım göstərən ayağını dizdən bükərək zərərçəkmişi qarnı üstə budunun üzərinə qoyub əli ilə onun kürəkləri arasındakı sahəyə güclü şəkildə təzyiq etməklə tənəffüs yollarından suyu xaric etməlidir. Bu əməliyyat süni tənəffüsün verilməsinin gecikdirilməməsi üçün 10-15 saniyədən çox çəkməməlidir. Suda boğulan insanı kənara çıxardıqdan sonra ilk növbədə təşvişə düşməmək lazımdır. Oksigen səviyyəsi azaldığından ətrafdakı insan çoxluğunu seyrəltmək lazımdır. Boğulan şəxsin sinəsinə basaraq suyu çıxarmaq yanlış hərəkətdir".

**İlkin yardım qaydasından danışan mütəxəssis bildirib ki, təcili tibbi yardıma xəbər verəndən sonra ilk növbədə boğulan insanın huşunun özündə olub-olmamasına diqqət yetirilməlidir:** "Əgər şəxsin huşu özündədirsə, nəbzi vurursa, üzü aşağı dizin üstünə yatırıb kürəyinə vuraraq tənəffüs yolundan və mədəsindən suyu çıxarmağa çalışmaq lazımdır. Xəstənin huşu özündə deyilsə, nəbzi, tənəffüsü yoxdursa, arxası üstə uzadıb başını bir az sağa yönəldərək süni nəfəs verilməli, ürək masajı edilməlidir".

❑ **Xalidə GƏRAY,
"Yeni Müsavat"**

# Əliyevin Şuşadan verdiyi mesaj və ən mühüm detal... - Korotçenko

**"Şuşa Qlobal Media Forumu ötən həftənin ən mühüm beynəlxalq tədbirlərindən birinə, əlamətdar hadisəyə çevrildi. Forumun keçirilməsi Azərbaycanın siyasi, diplomatik, informasiya təntənəsi oldu. Prezident İlham Əliyev regional və beynəlxalq vəziyyətin dərin təhlilini, rəqəmlərə, faktlara mükəmməl yiyələndiyini, strateji hədəflərin müəyyən edilməsini nümayiş etdirdi. O, əsl lider, siyasətçi və diplomat kimi unikal keyfiyyətləri nümayiş etdirdi".**

News24.az xəbər verir ki, bunu Şuşa Qlobal Media Forumunun iştirakçılarından biri, rusiyalı politoloq, Xəzər Strateji Araşdırmalar İnstitutunun baş direktoru İqor Korotçenko "Moskva-Baku"ya müsahibəsində deyib.

"Təfərrüatlara varmamaq mümkün deyil - Prezident Əliyev forum iştirakçıları ilə "qalstuksuz" formatda görüş keçirdi. Bu, birbaşa səmimi söhbət idi. Bundan əlavə, dövlət başçısı üç dildə - Azərbaycan, ingilis və rus dillərində sualları cavablandırdı. İlham Əliyev dünyanın aparıcı liderlərindən biri olduğunu bir daha nümayiş etdirdi. Sakit, özünə güvənən, zəkanın dərinliyini nümayiş etdirən, ona uyğun bir şəkildə söhbət aparan... Problemlərin, mövqeyin, fikirlərin ani, aydın şəkildə təqdim edilməsi Azərbaycan Prezidentini çox güclü şəkildə fərqləndirir. İstisnasız olaraq bütün forum iştirakçıları çox böyük təəssürat içərisində idi", - siyasətçi bildirib.

**O qeyd edib ki, İlham Əliyevin çıxışını əsas nitq adlandırmaq olar, çünki qaldırılan məsələlərin dairəsi çox geniş idi, dövlət siyasətinin yaxın gələcək üçün hədəfləri müəyyən olundu, strateji baxış öz əksini tapdı:** "Məhz bu mövzuda mən sual verdim - Azərbaycanın gələcək inkişaf strategiyası, prezidentin gördüyü kimi, əsas prioritetlər nələrdir. Prezident cavab verdi ki, əsas məqsəd regionda sülhün və təhlükəsizliyin, o cümlədən Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması yolu ilə bərqərar olması, Azərbaycan xalqının rifahının yaxşılaşdırılmasıdır. Dövlət başçısı qeyd edib ki, Bakı dünya iqtisadiyyatının tendensiyalarını başa düşür və buna uyğun olaraq qeyri-neft sektorunun davamlı inkişafına, bərpa olunan enerjinin inkişafına arxalanır. Axı təbii ehtiyatlar öz həcmlərində məhduddur. Və bu çox sağlam yanaşmadır. Gələcəyin iqtisadiyyatı üçün zəmin yaratmaq bu gün gələcəyin çağırışlarına hazırlaşan və dövlətinin uğurlu olmasını istəyən liderlərin əsas vəzifələrindən biridir. Prezident Əliyev zamanın nəbzini mükəmməl hiss edir, cari və gələcək çağırışlar və keçmiş təcrübələr əsasında siyasət aparır. Bu baxımdan, Əliyev Qarabağı bu gün ölkənin iqtisadi inkişafının aparıcı qüvvəsi kimi görür".



**Korotçenko əlavə edib ki, İlham Əliyev beynəlxalq təlatümlər fonunda öz dövlətini irəli aparan, qabaqcadan düşünən, bütün riskləri hesablayan və əsl müstəqil dövlət başçısı olan nadir liderdir:** "Hansı ki, bizim dövrümüzdə, xüsusən beynəlxalq münasibətlər sisteminin dəyişdiyi indiki beynəlxalq şəraitdə çox nadir hallarda rast gəlinir. Həmçinin Azərbaycanın müasir siyasətinin prioritet istiqamətlərindən biri də Azərbaycan Silahlı Qüvvələrinin daha da müasirləşdirilməsi, ən müasir silahlarla təchiz edilməsi, səmərəliliyinin artırılmasıdır.

Mən daha bir detalı vacib hesab edirəm: prezident qeyd etdi ki, hər bir insan kimi o da ədalətsizliyə görən yerdə reaksiya verir və Azərbaycan hakimiyyəti insanların həyat səviyyəsinin yaxşılaşdırılması üçün hər şeyi edəcək. Dövlət başçısının bu cür yanaşması, ölkəsinin rifahının qayğısına qalması, xalqın yanına getməsi, birbaşa təmas vasitəsilə sakinlərin arzularını öyrənməsi çox vacibdir. Yeri gəlmişkən, Ermənistanda həm sosial şəbəkələr seqmentində, həm də rəsmi İrəvanda foruma kifayət qədər əsəbi reaksiya verilib. Baş nazir hətta ötən gün "cavab" olaraq mətbuat konfransı keçirmək qərarına gəlib".

**Siyasətçi hesab edir ki, forum xüsusən də informasiya müharibəsi fonunda bir daha Azərbaycanın beynəlxalq nüfuzunu gücləndirməyə və öz nöqteyi-nəzərini dünyanın onlarla ölkəsinin media ictimaiyyətinə çatdırmağa imkan verdi:** "Forumun sonunda İlham Əliyevin yanıma gəlib məni salamlaması və əlimi sıxması çox xoş idi. Bu həm də bir jestdir. Forum iştirakçıları isə artıq yaxınlaşmağa, prezidentlə selfi çəkdirməyə, ünsiyyət qurmağa başladılar. Bu sadə ünsiyyət həm də siyasətçinin səviyyəsinin göstəricisidir. Media forumunun əla təşkilinə hamı diqqət yetirdi. Bu yaxınlarda istifadəyə verilmiş gözəl beşulduzlu "Şuşa" mehmanxanasında keçirildi. Onun separatçıların "parlament" qurmaq istədikləri yerdə tikilməsində müəyyən simvolizm var.

Biz də gördük ki, işğaldan azad edilmiş Azərbaycan əraziləri və 30 illik işğalın nəticələrinin bərpası istiqamətində nə qədər fəal iş aparılır. Şuşada bərpa işləri aparılır, çoxlu sayda tarixi abidələr bərpa olunub, həm müsəlman, həm də xristian dini ziyarətgahları bərpa olunur. "Zəfər yolu" ilə Şuşaya gedəndə biz genişmiqyaslı nfrastruktur dəyişikliklərinin şahidi olduq. İşğaldan azad edilmiş ərazilərin bərpasının nəticələri, Azərbaycan torpaqlarının işğaldan azad olunduqdan dərhal sonra necə göründüyünü və son zamanlar nə qədər dəyişdiyini müqayisə edəndə ortaya çıxan təzad həm də Azərbaycanın uğurudur".

# Azərbaycanda orduya çağırış yaşı artırılacaq? - hərbi ekspertdən maraqlı təklif

## "Bizdə də yaş həddi 20-yə qaldırılmalı, ali təhsillilərin xidmət müddəti 6 aya endirilməlidir..."

**Rusiya Dövlət Dumasının hərbi xidmətə çağırış yaşının artırılması haqqında qanun layihəsinə ikinci, əsas oxunuşda baxacağı gözlənilir. "Report"un məlumatına görə, söhbət Dövlət Dumasının Müdafiə Komitəsinin sədri Andrey Kartapolovun başçılıq etdiyi bir qrup deputatın mart ayında palataya təqdim etdiyi qanun layihəsindən gedir.**

Duma sənədi iyunda birinci oxunuşda qəbul edib. İlkin olaraq təşəbbüs "Hərbi vəzifə və hərbi xidmət haqqında" və "Alternativ mülki xidmət haqqında" qanunlarda hərbi xidmətə çağırış yaşının mərhələli şəkildə hazırkı 18 yaşdan 21 yaşa qaldırılmasını nəzərdə tuturdu.

Çağırış yaşının yuxarı həddinin 30 yaş (hazırda 27 yaşdır - qeyd) müəyyən edilməsi təklif edilib. Birinci oxunuşda qəbul edilən qanun layihəsinə əsasən, 2024-cü ildə çağırış yaşının 19 yaşdan 30 yaşa, 2025-ci ildə 20 yaşdan 30 yaşa, 2026-cı ildə 21 yaşdan 30 yaşadək müəyyən edilməsi təklif edilib. İkinci oxunuşda qanun layihəsi üzərində iş zamanı Dövlət Dumasının Müdafiə Komitəsi düzəlişi dəstəkləyib, ona görə hərbi yaşın aşağı həddi 18, yuxarı həddi isə 30 yaş olaraq qalıb. Belə ki, 2024-cü il yanvarın 1-dən hərbi xidmətə çağırış yaşı 18 yaşdan 30 yaşa qədər ola bilər.



Yeni qanun Rusiya kimi dövlətə, onun ordusuna nə verəcək? Azərbaycanda da çağırış yaşının artırılması mümkünmü?

Məlumdur ki, ölkəmiz NATO (Türkiyə) tipli orduya keçidi hədəfləyib. Bu tip ordularda, o cümlədən qardaş Türkiyədə çağırış yaşı neçədir? Bəs peşəkar orduya keçid imkanlarımız hansı səviyyədədir?

**Hərbi polisin sabiq rəisi, polkovnik Rövşən Məhərrəmov Rusiyadakı qanunu doğru sayır:** "Rusiya Dumasında bu məsələyə baxılır. Yaş həddini 18 yaşdan 20-yə qaldırmaq planda var. Gənclərin bəziləri ali məktəblərdə təhsil alırlar. Onlar da nəzərdə tutulur. Hərbi xidmətdən yayınanlar da var. Hesab edirəm ki, bu normaldır. Çünki 20 yaş normal sayılır.

Son Rusiya-Ukrayna savaşında anaların etirazları oldu. Cavanların savaşa cəlb edilməsi etirazla qarşılandı - baxmayaraq ki, Müdafiə Nazirliyi çağırışçıların müharibəyə cəlb olunmayacağını elan etmişdi. Amma sonradan sübut olundu ki, 18 yaşlılar arasında da ölənlər çox olub. Halbuki onlar çox təcrübəsiz idilər. Məktəbi bitirən kimi elə ağır savaşa onları göndərmək heç bir halda doğru deyildi. Dünənki məktəbli bu gün orduya çağırılır, 3 il keçməmiş müharibəyə göndərilir. Görünür ki, Rusiyada ağıllı insanlar bunu nəzərə alıblar. Yaş həddinin 30-a qaldırılması təklifi çox doğrudur. Köhnə sovetlər dövründə - Pribaltika ölkələri istisna - yaş həddi 18 idi. Ola bilər ki, son dönəmlərdə bəzilərində müəyyən dəyişikliklər olsun".

**Hərbi ekspert Türkiyə ilə bağlı da danışdı:** "Qardaş ölkədə 1927-ci ildə qanun qəbul olunmuşdu. Bu qanuna əsasən, 20 yaşdan 41 yaşa qədər çağırış müddəti idi. 2019-cu ildə Türkiyədə də dəyişiklik olundu. Xidmət müddəti əsgərlər üçün 6 ay müəyyən edildi. Zabitlər üçün bu müddət bir il oldu. Pullu xidmət də nəzərdə tutuldu. Bu da onunla bağlı idi ki, başqa ölkələrdə yaşayıb Türkiyə vətəndaşları olanlar var. Onlardan kimlər xidmət etmək istəmirsə, qarşılığında pul ödəməlidir. Amma 2 həftədən 2 aya qədər onlara da təlim keçirilir. Onlar ehtiyata qeydiyyata alınırlar".

**Azərbaycana gəlincə, hərbi ekspert dedi:** "Azərbaycan Türkiyə modelinə keçir. Bunu da ölkəmizdə çox vacib məsələlərdən biri kimi hesab edirəm. Çünki 18 yaşındakı çağırışçı məktəbi təzəcə başa vurub, çox cavandır. Ali məktəbə qəbul olanlar bu məktəbi bitirdikdən sonra orduya çağırılır. Qəbul olmayanlar isə 18 yaşında orduya aparılır. Bu yaş həddi də çox aşağıdır. Hesab edirəm ki, Azərbaycanda da yaş həddi 20-yə qaldırılmalıdır. 2002-ci ilə qədər ölkəmizdə çağırış müddəti 18 yaşdan 27-yə qədər idi. Amma 21 il öncə hərbi xidmətdən keçmə ilə əlaqədar qanunlarımızda dəyişiklik olundu. Bu yaş həddini 18-dən 35-ə qədər qaldırdıq. Bilirsiniz ki, 1-ci Qarabağ savaşında xidmətdən yayınanlar, xidmətdən yayınıb xaricdə yaşayanlar da var idi. Onlara imkan yaradıldı ki, 25 yaşa qədər gəlsinlər, öz borclarını yerinə yetirib xidmət etsinlər. Təcrübə onu göstərir ki, 30 yaşdan yuxarı hərbi xidmət keçməyənlər olduqca az olub. Artıq yaş həddini 30-a endirməli, 18 yaşı da 20-yə qaldırmalıyıq.

20 yaşlı gəncin beynində sərbəstlik yaranır ki, bu da orduda komandirlərin işində onlara bir köməkdir. Onlar arasında cüssəcə çox zəiflər də olur. Hesab edirəm ki, təhsillilərin xidmət müddətini 6 aya endirmək lazımdır. Olmayanların isə müddəti bir il endirilsə çox yaxşı olardı. Biz artıq müharibədə qalib gəlmişik. Mütəxəssis hazırlamaq üçün 6 ay kifayət edir. Orduda ən müxtəlif sahələrin mütəxəssisi olmaq üçün 6 ay elə də az müddət deyil. Ehtiyata buraxıldıqdan sonra o artıq Azərbaycan Ordusunun ehtiyatda olan mütəxəssisi sayılır.

Müqavilə əsasında orduda xidmət edənlər kifayət qədər çoxdur. Komando hərbi birləşmələri yaradılıb. Əsgərliyə gedib xidməti başa vurduqdan sonra orduda qalmaq istəyənlərə geniş imkanlar yaradılır. Alternativ xidmət də çox müsbətdir. Bu xidməti ona görə vurğuladım ki, arxa cəbhədə, hərbi hospitallarda, təchizatda bu xidmət çox vacibdir. Müəyyən pul köçürülür və qeyd etdiyim yerdə alternativ xidmət həyata keçirilir. Hesab edirəm ki, qardaş Türkiyədə olduğu kimi, pullu xidməti də nəzərdən keçirmək lazımdır. Xidmətə yararsız, zəif olanlar var. Amma həm də bunu o şərtlə etmək lazımdır ki, 2 həftədən 2 aya qədər onlar təlim keçsinlər. Bu müddəti ona görə deyirəm ki, elə biri ola bilər ki, səhhəti ilə əlaqədar 2 ay yox, məsələn, 1 ay təlimlərdə iştirak edə bilər, yaxud da yarım ay. Qardaş Türkiyədə belədir".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

**İyulun 24-də Azərbaycan Prezidenti İlham Əliyev Milli Təhlükəsizlik Nazirliyinin (MTN 2015-ci ildə ləğv olunub - E.M.) İstintaq Baş İdarəsinin rəisi olmuş Mövlam Şıxəliyevin, idarənin şöbə rəisləri vəzifəsində çalışmış Sahib Ələkbərovun və Yasin Məmmədovun ali hərbi rütbədən və dövlət təltiflərindən məhrum edilməsi haqqında sərəncam imzalayıb.**

# Prezident sərəncamı Mövlam Şıxəliyevin son ümidini belə kəsdi

## Barəsində yeni cinayət dosyesi var!



Sərəncam Mövlam Məmmədismayıl oğlu Şıxəliyevin, Sahib Yunus oğlu Ələkbərovun və Yasin Seyfulla oğlu Məmmədovun ağır və xüsusilə ağır cinayətlər törətdiklərinə görə məhkum olunmaları barədə məhkəmə hökmünün qanuni qüvvəyə minməsi və Bakı Hərbi Məhkəməsinin təqdimatları əsas götürülərək imzalanıb.

Sərəncama əsasən, Mövlam Məmmədismayıl oğlu Şıxəliyev general-mayor ali hərbi rütbəsindən, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenindən, "Vətən uğrunda" və "Hərbi xidmətlərə görə" medallarından məhrum edilib. Sahib Yunus oğlu Ələkbərov və Yasin Seyfulla oğlu Məmmədov "Vətən uğrunda" medalından məhrum ediliblər.

Mövlam Şıxəliyevin və başının dəstəsinin məhkəmə prosesini izləyənlər sual edirlər ki, niyə Prezident sərəncamında Vüsal Ələkbərovun adı yoxdur? Axı Vüsal Ələkbərov da Mövlam Şıxəliyev və digəri 2 şəxslə birgə Bakı Hərbi Məhkəməsində həbsə alınıb, barələrində ittihamedici hökm çıxarılıb.

Məsələ ondadır ki, Vüsal Ələkbərov daha əvvəl - 2015-ci ildə Milli Təhlükəsizlik Nazirliyində həyata keçirilən xüsusi əməliyyat zamanı digər 21 nəfərlə birgə həbsə alınmışdı. O zaman ona qarşı Cinayət Məcəlləsinin 182 (hədə-qorxu ilə tələbetmə), 294 (sübutları saxtalaşdırma), 311 (rüşvətalma) və 341-ci (hakimiyyətdən sui-istifadə etmə, hakimiyyət həddini aşma) maddələri ilə ittiham olunmuşdu. Sonradan Bakı Hərbi Məhkəməsində hakim qarşısına çıxarılan Vüsal Ələkbərov 12 il azadlıqdan məhrum edilib. Hökmə əsasən, Vüsal Ələkbərovun polkovnik rütbəsi də əlindən alınıb, üzərinə həbs qoyulmuş 1 milyon 277 min manatlıq əmlakının (həyat yoldaşı Şəhla Ələkbərovanın adına rəsmiləşdirilmiş Səbayel rayonu, Badamdar qəsəbəsində 0.18 hektar torpaq sahəsi və orada yerləşən fərdi yaşayış evi, Yasamal rayonu, Şərifzadə küçəsindəki mənzil) müsadirə olunub zərərçəkmişlərdən Akif Qurbanova dəymiş ziyanın ödənilməsinə yönəldilməsi də yer almışdı.

Daha sonra Bakı Apelyasiya Məhkəməsi Vüsal Ələkbərovun 12 illik cəzasını 5 ilə endirib. Ancaq rütbə və əmlakla bağlı məsələ dəyişdirilmədən saxlanılıb. O zaman Vüsal Ələkbərov ittihamları qəbul etmir, əmlakının müsadirə olunması ilə də razılaşmırdı. O, Bakı Apelyasiya Məhkəməsində çıxış edərkən bu fikirləri demişdi: "Mənə mütəşəkkil dəstənin tərkibində cinayət törətmək haqda ittiham verilib. Amma mütəşəkkil dəstənin kimlərdən ibarət olduğu müəyyən edilməyib. Mənim əmlakımın müsadirə edilib Akif Qurbanova verilməsi məsələsi də hökmdə öz əksini tapıb. Niyə? Əgər cinayəti mütəşəkkil dəstə törədibsə, mən niyə ödəməliyəm? Bu qədər ədalətsizlik olmaz axı..."

Vüsal Ələkbərov haqqındakı həmin hökmdə sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudov və nazirliyin İstintaq İdarəsinin rəisi olmuş Mövlan Şıxəliyevin barəsində cinayət işi başlanması üçün prokurorluğa təqdimat göndərilməsi məsələsi də öz əksini tapmışdı. Eldar Mahmudovla Mövlam Şıxəliyevin həbsi məsələsi uzun müddət açıq qaldı. Hökmlə zərərçəkən Akif Qurbanova verilməsi qət olunan əmlak da qanunsuz olaraq onun əlindən alınaraq Vüsal Ələkbərova qaytarılmışdı. 2020-ci ildə azadlığa çıxan Vüsal Ələkbərov 2021-ci ilin aprelində rəisi Mövlam Şıxəliyev həbsə alınandan sonra istintaqa cəlb olunmuşdu. Lakin istintaq dövründə barəsində həbslə əlaqəli olmayan qəti imkan tədbiri seçilmişdi. O, üzvü olduğu mütəşəkkil cinayətkar quldur dəstənin digər iki üzvü - Yasin Məmmədov və Sahib Ələkbərovla birgə Bakı Həbi Məhkəməsində keçirilən prosesə 1 ilə yaxın evlərindən gəlib getdilər. Mövlam Şıxəliyev isə istintaq dövründə, sonradan məhkəmə dövründə də həbsdə idi.

Dəstə üzvləri çox ümidli idilər ki, Bakı Hərbi Məhkəməsində köhnə əlaqələri hesabına Mövlam Şıxəliyev özünü və avtomatik olaraq onları da xilas edəcək. Düzdür, Mövlam Şıxəliyev bu istiqamətdə addım atdı. 2021-ci ilin sentyabrında oğlu Elgün Şıxəliyevin vasitəsilə əvvəllər də dələduzluqda ittiham olunmuş vəkil Elçin Qəmbərova 300 min dollar pul vermişdi. Bu məbləğin qarşılığında Elçin Qəmbərov Mövlam Şıxəliyevi məhkəmə dövründə həbsdən azad etdirəcəyini vəd etmişdi. Lakin Elçin Qəmbərov pulu alandan sonra Elgün Şıxəliyevə verdiyi vədi unutmuşdu. Məsələ Elçin Qəmbərovun həbsi, məhkəmə qarşısına çıxarılması və rüşvət vermək üçün aldığı pulu dövlət nəfinə keçirməsi ilə sonuclandı. Mövlam Şıxəliyevin azadlığa gedən qapısı məhkəmə dövründə belə qapalı qaldı.

Bu isə MTN-də 10 ilə yaxın onun tabeliyində işləmiş, elə orada yaradılan mütəşəkkil cinayətkar quldur dəstəyə daxil olan, Mövlam Şıxəliyevlə birgə məhkəmə qarşısına çıxarılan digər 3 müttəhimin - Sahib Ələkbərov, Yasin Məmmədov və Vüsal Ələkbərovun əhvalını pozmuşdu. İllərlə qanunsuz olaraq vətəndaşları həbsə aldıran dəstə üzvləri yaxşı başa düşürdülər ki, Mövlam Şıxəliyevin həbsdə qalması onlara yaxşı heç nə vəd etmir.

Sentyabrın 21-də Bakı Hərbi Məhkəməsində ona və vaxtilə MTN-də tabeliyində çalışmış daha üç polkovnikə - keçmiş şöbə rəisləri Yasin Məmmədov və Vüsal Ələkbərov, rəis müavini Sahib Ələkbərova hökm oxunub. Hökmə əsasən, Mövlam Şıxəliyev 12 il, Vüsal Ələkbərov 11 il 2 ay, Yasin Məmmədov 10 il 6 ay, Sahib Ələkbərov isə 8 il azadlıqdan məhrum edilib. Qeyd etdiyimiz kimi, Mövlam Şıxəliyevdən başqa digər 3 nəfər həbsdə deyildi. Onlar hökm oxunanda məhkəmə zalından həbs olunublar.

Məhkəmə həmçinin Mövlam Şıxəliyevin general-mayor rütbəsinin, Sahib Ələkbərovla Yasin Məmmədovun polkovnik rütbəsinin və bir sıra başqa təltiflərin onlardan alınmasına qərar verib. Hökmün bu hissədə icra olunmaması Mövlam Şıxəliyev və digərlərində bir ümid yaratmışdı. Düşünürdülər ki, Ali Məhkəmədə barələrindəki qərardan şikayətə baxılana qədər rütbələrinin əllərindən alınmaması xeyirlərinə şərh oluna bilər. Lakin Prezidentin verdiyi sərəncamla Mövlam Şıxəliyev və digər 3 dəstə üzvünün ümidləri alt-üst oldu.

Daha bir maraqlı məqam ondan ibarətdir ki, Mövlam Şıxəliyev və digərləri barəsində Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində hazırda bir neçə cinayət işi var. Həmin işlər üzrə zərərçəkənlərin ümumi sayının 100 nəfərdən artıq olduğu bildirilir.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**



## Azərbaycan XİN BQXK-yə cavab verdi

**"Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) humanitar mandatına riayət olunması və ondan siyasi məqsədlər üçün sui-istifadə edilməməsi vacibdir".**

Bu fikirlər Beynəlxalq Qızıl Xaç Komitəsinin bölgədə humanitar vəziyyətlə bağlı iyulun 25-də səsləndirdiyi bəyanatına dair şərhində əksini tapıb.

Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) bölgədə humanitar vəziyyət və BQXK-nın fəaliyyəti ilə bağlı 25 iyul tarixində verdiyi bəyanat tərəfimizdən qeydə alınıb.

Məlum olduğu kimi, cari ilin 15 iyun tarixində Laçın sərhəd-buraxılış məntəqəsinin atəşə tutulması, iyul ayında erməni əsilli sürücülərin Beynəlxalq Qızıl Xaç Komitəsinə məxsus nəqliyyat vasitələrində qaçaqmalçılıq məhsullarını Azərbaycana gətirmək səyləri Ermənistan tərəfinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı növbəti qeyri-qanuni fəaliyyəti, eləcə də sərhəd-keçid məntəqəsinin fəaliyyətinə maneçilik kimi qiymətləndirilərək, bu kimi pozucu tədbirlərə son qoyulması tərəfimizdən tələb olunub.

Ermənistan tərəfindən aparılan qeyri-qanuni fəaliyyət cəhdlərinin qarşısını almaqla yanaşı, Azərbaycan tərəfi BQXK ilə vacib əməkdaşlığı davam etdirib. Azərbaycan tərəfinin BQXK ilə apardığı müzakirələrdən sonra, zəruri qaydalara riayət etməklə, BQXK vasitəsilə erməni sakinlərin tibbi məqsədlər üçün sərhəd məntəqəsindən keçidinin davam etməsinə şərait yaradılıb və gün ərzində onlarla erməni sakin hər iki istiqamətdə sərhəd məntəqəsindən keçib.

Daha böyük miqdarda dərman preparatları və yüklərin daşınması və tədarükü üçün Azərbaycan tərəfindən "Ağdam-Xankəndi" yolundan istifadə etməklə yardım təklif edilib. Lakin buna baxmayaraq, təəssüflər olsun ki, erməni tərəfi təkidlə bu yoldan imtina edilir. Bununla yanaşı, erməni sakinlərin tibbi məqsədlər üçün Laçın sərhəd-buraxılış məntəqəsindən BQXK vasitəsilə keçidinin daha da asanlaşdırılması məqsədilə BQXK-nın həkiminin əraziyə getməsi ilə bağlı razılıq əldə olunmasına baxmayaraq, yerində bundan imtina olunması da təəssüf doğurur.

Erməni tərəfinin Azərbaycan tərəfindən atılan addımlara və dəstək niyyətinə, o cümlədən BQXK tərəfindən sözügedən bəyanatda da qeyd edildiyi kimi. "Ağdam-Xankəndi" və digər alternativ yollardan istifadə edilməsi təkliflərinə qarşı çıxması bölgədə "gərgin humanitar vəziyyət" iddialarının siyasi manipulyasiya və təzyiq vasitəsi olduğunu bir daha sübut edir.



## Paşinyan açıqladı: "Qarabağın Rusiya tərkibinə daxil edilməsi..."

**"Ermənistan hakimiyyəti Qarabağ ermənilərinin Ermənistan ərazisinə köçürülməsi məsələsini nəzərdən keçirmir".**

Musavat.com xarici erməni mediasına istinadən xəbər verir ki, bu barədə Ermənistanın baş naziri Nikol Paşinyan dünənkl nmətbuat konfransında bildirib. Onun sözlərinə görə, ölkə hakimiyyətinin fəaliyyəti Qarabağın erməni əhalisinə öz evlərində yaşamaq imkanının təmin edilməsinə yönəlib.

Paşinyan "Qarabağın Rusiya tərkibinə daxil edilməsinin mümkünlüyü" barədə suala isə belə cavab verib: "Sualınıza cavabım yoxdur, ona görə ki, bu məsələnin mənimlə heç bir əlaqəsi yoxdur".

Paşinyan rusiyalı həmkarları ilə görüşlər zamanı heç vaxt belə bir ehtimalı müzakirə etmədiyini sözlərinə əlavə edib.

YENİ MÜSAVAT
N 127 (8263) 26 iyul 2023



# Velosiped oğruları

Zamin HACI
zaminhaci@gmail.com

"Gəmisini batıran, çarığını axtarmaz"
*(Azərbaycan ata sözü)*

**24 iyulda polisin respublikamızın 3 müxtəlif bölgəsində velosiped oğrularını tutması kriminal xronikada diqqətimizi çəkmişdir. Bunlardan biri Gəncədə, ikincisi Sumqayıtda, üçüncüsü isə nə qədər qəribə olsa da Naxçıvanda olmuşdur. Əlbəttə, bizim diqqətimizi çəkən elə axırıncı bölgədir, çünki Vasif müəllimin rəhbərlikdən getməsindən sonra orada geriyədönməz hadisələr cərəyan edir.**

Burada bir qədər tarixə mədəni ekskurs edək. Dünya kinosunun şedevrlərindən olan film var: "Velosiped oğruları". Film italyan rejissor Vittorio de Sicanın əsəridir. Neorealizm üslubundadır. İkinci Dünya savaşından sonra Romada kasıbçılıqla yaşayan ata və oğlu nəhayət afişa yapışdıran işi tapırlar, lakin iş üçün mütləq velosiped lazımdır. Ev əşyası satıb velosiped alırlar, lakin bunu kimsə oğurlayır. Sonra oğruların izinə düşürlər, axırda özləri də məcbur qalıb velosiped oğurlayır və sairə - bütün filmi burada danışmağın mənası yoxdur, baxmasan anlamazsan. Film sosial dramdır, az qala sənədli film kimi bir şeydir və o qədər uğurludur ki, velosiped oğurluğunu az qala cəmiyyətin həyat şəraitini ölçmək üçün ölçü vahidi kimi qoyubdur. Harda velosiped oğurluğu olursa, çox insanlar de Sica-nın ölümsüz filmini xatırlayır. Halbuki əslində velosiped oğurluğu hazırda dünyanın ən inkişaf etmiş ölkələrində - Almaniya, Niderland, Fransada da populyar cinayətlərdəndir. Velosipedin o bölgələrdə populyar olması üzündən həm də. Bizdə heç velosiped sürməyə yol yoxdur, oğrular nəyi oğurlasın? Artistlik üçün bulvar tərəflərdə hansısa qısa velosiped yolu qayırmışdılar, o da alınmadı.

Qayıdaq öz oğrularımızın yanına. Gəncə və Sumqayıtda bu əməli törədənlər keçmiş cinayətkarlar imiş. Naxçıvanda isə keçmiş cinayətkar olmadığı məlumdur (bu haqda az sonra). Lakin hadisəni bir qadının törətməsi maraqlıdır. **Sitat:** "Naxçıvan Şəhər Polis İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində iyulun 22-də şəhər ərazisində yerləşən bazarda mağazalardan birinin qarşısından velosiped oğurlamaqda şübhəli bilinən Qaraxanbəyli kənd sakini S.Sadıqova müəyyən olunaraq saxlanılıb". Sitatın sonu.

Ümid edirəm soyadını səhv yazıblar. Biz qadına yüksək dəyər veririk.

Vasif Talıbovun başçılıq etdiyi dönəmdə Naxçıvanda cinayətkarlıq sıfır səviyyəsinə düşmüşdü. Mən bunu özümdən uydurmuram, istənilən adam internet arxivlərində statistik məlumatlar tapa bilər. Məsələn, söz vaxtına çəkər, AZƏRTAC dövlət agentliyinin 21 iyul, 2016-cı il, saat 14:58-də yazdığı (yüksək dəqiqlik buna deyirlər) xəbərin başlığı məhz belədir: "Naxçıvan Muxtar Respublikası bu gün cinayətsiz regiona, paytaxtı isə təhlükəsiz şəhərə çevrilib".

Yeri gəlmişkən, dünyada ən az kriminal olan ölkələrdən biri İslandiyadır. Yadıma gəlir, 4-5 il qabaq (mən dövlət agentliyində çalışmıram, o üzdən qeyri-dəqiqəm) hətta belə xəbər çıxmışdı: "İslandiyada son 100 ildə ilk dəfə adam öldürülüb". Vasif müəllimin uğurlu kriminal siyasəti sayəsində Naxçıvan İslandiyaya çevrilmişdi, bəlkə onu ötüb keçmişdi. Fürsətdən istifadə edərək hörmətli oxucularımıza island rejissoru Valdimar Yohanssonun 2021-ci ildə çəkdiyi, diqqətə layiq "Quzu" filminə baxmağı məsləhət görərdim. Film island tərəkəmələrin yaylaq həyatından, dinsiz-imansız hərəkətlər üzündən uşağın qoyuna çevrilməsindən bəhs edir.

İndi söz əlaqədar təşkilatlarındır. Yazın görüm siz haçansa velosiped oğurlamısınızmı?




# Qarabağdakı xuntaçıların özünüifşa həftəsi: blokada tamaşasının qəmli sonluğu

## Sıfır nəticə, iflas olan ultimatum! Terrorçu-kriminal ünsürlər başlarını itirib; **politoloq:** "Erməni sakinlər belə separatçılara kütləvi dəstək vermədi..."

**Qarabağdakı erməni sakinləri girov saxlayan separatçı-quldurların Bakıya qarşı "həftə"lik şantaj-ultimatumunun vaxtı bitdi. Gözlənildiyi kimi, "stəkanda fırtına" yaratmaq istəyən xuntaçılar qara-qışqırıq salmaqdan savayı heç nəyə nail olmadılar. Yalnız özünü-ifşa!**

Separatçı tör-töküntülərin və onların xaricdəki, özəlliklə Fransadakı havadarlarının ötən ilin dekabrından (Laçın yolunda ekoloqların etiraz aksiyasından) başlayan və hələ də davam edən "blokada" şivəni getdikcə dünyada daha az diqqət çəkməkdə, lap dəqiqi, siyasi şou, tamaşa kimi qəbul olunmaqdadır.

Təbiidir. Çünki Azərbaycan tərəfdən heç vaxt, heç bir blokada olmayıb, yoxdur. Dövlətimiz, sadəcə, öz suveren hüququndan istifadə edərək, yolun separatçılar və Rusiya "sülhməramlı" qüvvələri tərəfindən qeyri-humanitar, hərbi və terror məqsədilə istifadəsini önləmək üçün onu sadəcə, nəzarətə götürüb, sərhəddə "Laçın" yoxlama-buraxılış postu qoyub.

Üstəlik, Bakı separatçılara alternativ Ağdam yolunu təklif eləməklə, ermənilər isə həmin yolu kəsməklə, özlərini dünyada daha da rüsvay ediblər, öz "təbliğatlarını" sıfırlayıblar. Üçüncü tərəfdən bu necə blokadadır ki, 8 ayda bir erməni belə acından ölməyib, Xankəndi mağazalarında hər şey var?!.

"Araik Arutyunyan bundan sonra nəinki "aclıq aksiyası", hətta intihara cəhd etsə belə, nəticə dəyişməyəcək, çünki məsələ erməni əhalisinin təminatıdırsa, Azərbaycan bunu öz üzərinə götürür, separatçıların etdikləri isə öz mövcudluqlarını saxlamaq, separatizmi davam etdirməkdir. Bu, artıq beynəlxalq müstəvidə qəbul olunmur".

"Yeni Müsavat"ın məlumatına görə, bunu **siyasi analitik Asif Nərimanlı** deyib.

"İkincisi, separatçılar Azərbaycan Ordusunun mövqelərinə qarşı təxribat hücumları edə, bununla eskalasiya yarada və erməni əhalisini qırğına verərək, reinteqrasiyanın qarşısını ala bilərlər: bu ssenari hələ də aktualdır, lakin belə bir cəhd onların özünün məhvi ilə nəticələnəcək", - deyə analitik vurğulayıb əlavə edib ki, erməni əhalisinin separatçılara kütləvi şəkildə dəstək verməməsi də onların vəziyyətini daha da çətinləşdirir.

Bu xüsusda elə ermənilərin öz içində acı gerçəyi etiraf edənlər var. Məsələn, Xankəndidə Bakıya qarşı keçirilən etirazlarla bağlı **erməni ekspert Roman Baqdasaryan** öz Teleqram kanalında belə yazıb: "Neçə gündür etiraz aksiyası keçirilsə də, nəticə sıfırdır. Nəinki dünya birliyi, heç ermənilərin özləri aksiyaya əhəmiyyət vermir. Çünki dünya Rubeni, Araik və Qurgeni Rusiyanın qulu kimi qəbul edir. Ona görə də nəticə sıfırdır".

**Baqdasaryan "ümumilli" hərəkatı dəstəkləməkdən imtina edənlərin uzun siyahısını da verib:** "Rusiya erməniləri aksiyaya dəstək verməkdən qəti şəkildə imtina ediblər. 1,5 milyon ermənidən bir nəfər belə Azərbaycan səfirliyi və Rusiya Xarici İşlər Nazirliyinin binası qarşısında piket keçirməyib. Rusiya Ümumerməni İttifaqı, Ezras diaspor rəhbərləri susur. Fransanın 500 min ermənisinin və bütün Avropa ölkələrinin ermənilərinin "ölümcül sükutu". ABŞ erməniləri bütün bunları dəstəkləməkdən birmənalı şəkildə imtina ediblər. ABŞ və Avropadan bir dənə də olsun erməni bloger aksiyaya qoşulmayıb. Bütün Ermənistanda yalnız Hadrut sakinləri Rusiya səfirliyi və BMT-nin ofisi qarşısına aksiya keçiriblər".

**Sözünə davam edən Baqdasaryan bildirir ki, Rusiyada və Avropada yaşayan minlərlə Qarabağ ermənisi də Ruben, Qurgen, Araikin mitinqini dəstəkləməyiblər:** "İrəvanda 35.000-dən çox qarabağlı erməni yaşayır. Onlardan heç biri Xankəndidəki aksiyanı dəstəkləmək üçün posterlə çıxmayıb. Kim Kardaşyan, Şer, Serj Tankiyan, Yura Movsisyan, Henrix Mxitaryan və digər məşhur ermənilər dəstəkləməyiblər. Türkiyədə erməni millət vəkili də dəstək vermədi. Gürcüstandakı erməni diasporu dəstəkləmədi. Samvel Karapetyan bir sözlə dəstəkləmədi, Kamo Avaqumyan dəstəkləmədi, heç kim onların oliqarxlarını dəstəkləmədi. Ermənistan parlamentinin deputatı Tiqran Abramyan əvvəllər Qarabağda "hakimiyyət"də çalışsa da, piketlərə getmir. Rusiya FTX-nin əməkdaşı Ruben Vardanyanın müsahibəsi il boyu göstərilsə də, heç bir Rusiya kanalı Qarabağdakı mitinqləri göstərmir. Dünya Rubeni, Araik və Qurgeni Rusiyanın qulu kimi qəbul edir, dünya Rusiyaya nifrət edir, onunla birlikdə Qarabağ hakimiyyətinə də nifrət edir".

Odur ki, hər çapdan olan radikal-revanşistlərin cəhdləri boşa çıxıb və çıxacaq. Xüsusən də "Qarabağ klanı"nın təsiri altında olan qüvvələrin və onların təmsilçilərinin.

"Paşinyan açıq şəkildə Qarabağın Azərbaycanın bir hissəsi olduğunu deyir və etiraf edir. Üstəlik, bunun müqabilində qarşılıqlı tələb (?! - red.) irəli sürmür".

Bu barədə Ermənistanın keçmiş xarici işlər naziri Vardan Oskanyan feysbuk videomüraciətində bildirib.

Onun fikrincə, Paşinyanın siyasətinin davamı olaraq sənədin imzalanması nəticəsində Qarabağ erməniləri Azərbaycanın tərkibində əriyib gedəcək.

"Bakı ilə Xankəndi arasında dialoqun olacağından bəhs edən tezis formallıqdır, xalqın gözünə kül üfürmək cəhdidir. Sənədi imzalayandan sonra dialoqun başlandığı andan hesab edin ki, artıq Qarabağ Azərbaycanın tərkibindədir və məsələ bağlanıb", - deyə revanşist-ünsür təlaşını gizlətməyib.

Bəs nə bilmişdiniz? Azərbaycan 30 il işğal dövründə separatçı qurumu münaqişə tərəfi (danışıqların müstəqil subyekti) kimi tanımayıbsa, bundan sonramı tanıyacaq? Artıq ağıllanmaq və yeganə doğru qərarı vermək zamanıdır. Ermənı xalqı həqiqətən sülh, qonşularla dinc birgə yaşayış istəyirsə, oskanyan, vardanyan, arutunyan kimi avantüristləri və siyasi dələduzları təcrid eləməlidir. Həm də bacardıqca tez. Sabah gec olacaq...

❑ **Siyasət şöbəsi, "Yeni Müsavat"**



# İki peşəkarın Prezidentin xüsusi tapşırıqlar üzrə nümayəndə təyinatında hədəf

## Tofiq Zülfüqarov detalları açdı: “Belə başa düşürəm ki, bu təcrübəli diplomatları sülh danışıqlarına cəlb edəcəklər...”

**İyulun 24-də Xələf Xələfov Azərbaycan Respublikası xarici işlər nazirinin müavini vəzifəsindən azad edilib. Prezident İlham Əliyev bununla bağlı sərəncam imzalayıb. Dövlət başçısının digər sərəncamı ilə Xələf Xələfov Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi təyin edilib.**

Qeyd edək ki, ötən həftə - iyulun 18-də Elçin Əmirbəyov Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi təyin edilmişdi. Dövlət başçısının başqa sərəncamı ilə Elçin Əmirbəyov Azərbaycan Respublikası Birinci vitse-prezidentinin köməkçisi vəzifəsindən azad olunub.

Əmirbəyov Azərbaycanın Fransada, İsveçrədə, Vatikanda səfiri postlarında çalışıb. Xələf Xələfov da böyük diplomatik təcrübəyə malik şəxsdir. Uzun illər XİN-də çalışıb.

Niyə məhz onlar? Prezident xarici siyasətdə hansı istiqaməti gücləndirmək qərarı verib?

**Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov bu təyinatla bağlı təxminlərini “Yeni Müsavat”la bölüşdü:** “Belə başa düşürəm ki, bu təcrübəli diplomatları sülh danışıqlarına cəlb edəcəklər. Çünki belə görünür, Vaşinqton trekində daha uzunmüddətli danışıqlar planlaşdırılır. Bu danışıqların da əsas məqsədi sülh sazişinin hazırlanmasıdır. Burada səlahiyyətli şəxslər mətni hazırlayıb bu və ya digər yüksək səviyyəyə çıxarıb qəbul olunmuş şəkildə təqdim etməlidirlər. Danışıqların texnologiyası belədir.

Anladığım qədər Elçin Əmirbəyov daha çox sülh sazişi ilə məşğul olacaq. Xələf Xələfov uzun müddət Xarici İşlər Nazirliyində çalışıb və sərhədlərlə bağlı hüquqi məsələlər onun kurasiyasında idi. Demək olar ki, delimitasiya və demarkasiya məsələləri onun başçılığı altında keçiriləcək. Bu məsələlər komissiya tərkibində olan nümayəndə heyəti tərəfindən həyata keçirilir. Ona da rəhbərliyi Xələf Xələfov edirdi. Xəzər dənizinə aid danışıqlarda da Prezidentin nümayəndəsi idi. Bu baxımdan, onun təcrübəsi var. Hesab edirəm ki, bu məsələləri o yenə də aparacaq. Hər iki yeni vəzifəlinin səviyyəsi kifayət qədər yüksəkdir. Artıq onlar Prezidentin xüsusi nümayəndələridir. Elçin müəllim də uzun müddət danışıqlarda iştirak edib. Demək olar ki, bu, ilk günlərdən belə olub. Minsk Qrupunun ilk tədbirlərində belə iştirak edib. O, ən yüksək səviyyədə peşəkar mütəxəssisdir. Sonralar da müxtəlif yerlərdə çalışıb. BMT-də uzun müddət işləyib. Səfir kimi fəaliyyət göstərib. Xələf Xələfov peşəkar hüquqşünas kimi nazirlikdə idarə rəisi olub, həm də nazir müavini postunu tutub".

**Sabiq nazir bəzi düşüncələrlə razı deyil:** “Deməzdim ki, ölkə rəhbəri xarici siyasətdə bəzi istiqamətlər onu qane etmədiyi üçün belə təyinatlar etdi. Çünki bu insanlar onsuz da fəal xarici siyasətdə iştirak edirdilər. Diqqət edin, ən azından üç paytaxtda danışıqlar aparılır - Moskva, Brüssel və Vaşinqton. Təbii ki, bu danışıqlarda həmişə Prezident və yaxud nazir səviyyəsində iştirakı təmin etmək mümkün deyil. Eyni zamanda orada kifayət qədər səlahiyyətlərə məxsus olan şəxslər hazırlıq işləri görməlidirlər. Dediyim kimi, bu və ya digər mətnin hazırlıq səviyyəsini ən yüksək həddə çatdırmaq lazım gəlir. Bundan sonra da təbii ki, yekun qərarı ölkə rəhbəri verir. Danışıqların psixologiyası belədir. Burada kiminsə bundan öncə zəif və ya necə işləməsi əsas deyil. Sadəcə, idarəetmə strukturu maksimum səviyyəyə gətirilir.



Bundan öncə də bənzər mövqelər var idi. Uzun müddət Minsk Qrupu tərkibində bu danışıqlar getdi. 1993-cü ildən danışıqlarda Prezidentin xüsusi nümayəndəsi olmuşam. Buna aid məndə xüsusi səbəb mövcud idi. İndi iki istiqamətdə gedən danışıqlar düşünürəm ki, bu iki mütəxəssis tərəfindən həyata keçiriləcək".

**Müsahibimiz sonda sülh danışıqlarının uzanmasına da toxundu:** “Ermənistan 44 günlük müharibədən əvvəlki kimi yenə də sülh prosesini uzatmağa çalışır. Dediyim kimi, bir çox paytaxtlarda görüşlər baş verir. Bilirsiniz ki, digər bir istiqamət var, hansı ki, bu istiqaməti baş nazirin müavini həyata keçirir, yeni kommunikasiya məsələsinə aid. Görürük ki, təmaslar daima mövcuddur. Lazımdır ki, bununla mütəxəssislər məşğul olsunlar. Biz görürük ki, Xarici İşlər Nazirliyinin səlahiyyətləri yetərincə deyil. Prezident indi bu qərara gəlib ki, xüsusi tapşırıqlar üçün nümayəndələri olmalıdır. Burada təşkilatı məsələləri daha çox görürəm. Hansısa görüş gündəmə gələndə bu məsələyə aid məruzə edən xüsusi təyin olunmuş nümayəndə olmalıdır. Hesab edirəm ki, onlara aid kiçik də olsa bir qurum yaradılacaq. Onların köməkçiləri olmalıdır. Bu baxımdan, normal bir prosesdir”.

❑ **Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**

# Azərbaycanlı tarixçi alimdən Xameneyinin ali müşavirinə tutarlı cavab

## “1918-ci ilə qədər Ermənistan dövləti olmayıb, var idisə, paytaxtı hansı şəhər idi..”



Anar İsgəndərli



Əli Əkbər Vilayəti

**“İran-Ermənistan əlaqələri Əhəmənilər və Parfiya dövründən başlayır”. Bu sözləri Əli Xameneyinin ali müşaviri Əli Əkbər Vilayəti Zəngəzur dəhlizi ilə bağlı yazdığı məqalədə bildirib (Axar.az).**

Ermənistanın İran üçün xüsusi və strateji əhəmiyyətə malik olduğunu yazan ali müşavir Zəngəzur dəhlizinin açılması ilə Ermənistanın ikiyə bölünməsi, İranla Ermənistan arasında olan sərhədin bağlanmasının planlaşdırıldığını iddia edib: “Dəhliz açıldıqdan sonra biz on beş ölkə ilə deyil, on dörd ölkə ilə qonşu olacağıq və İranın Şimali Qafqaz, Rusiya və Avropa qitəsi ilə azad rabitəsi zərər görəcək. Bölgədə istənilən növ sərhəd dəyişikliyi uzunmüddətli gərginliyə səbəb olacaq və sərhədlərdə xarici ölkələrin olması ciddi narahatlıq doğuracaq”.

Göründüyü kimi, İranın Zəngəzur dəhlizi xofu bitmir, Tehran hələ də Ermənistanın üzərində əsir. Halbuki heç bir ərazi dəyişikliyindən söhbət getmir. Rəsmi Bakı dəfələrlə Ermənistanın ərazi bütövlüyünü tanıdığını bəyan edib. Azərbaycanın sülh müqaviləsi imzalamaq üçün irəli sürdüyü 5 məlum baza prinsipinin qayəsində də elə iki ölkənin bir-birinin ərazi bütövlüyü və suverenliyini qarşılıqlı tanıması durur. Xomeneyinin ali müşavirinin yazısında isə Bakıya qarşı yenə xəfif, sətiraltı təhdidlər var. Digər tərəfdən, fars-erməni dostluğunun az qala, “daş dövrü”nə getdiyini iddia edən Vilayəti doyasıyla hansısa qədim “Ermənistana” işarə edir. Halbuki indiki Ermənistan bütünlüklə Türk torpaqlarında təşəkkül tapıb.

**Millət vəkili, Bakı Dövlət Universitetinin Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müdiri Anar İsgəndərli mövzu ilə bağlı “Yeni Müsavat”a qeyd etdi ki, nə İran, nə də Ermənistan Cənubi Qafqazda ilk erməni dövlətinin nə zaman və hansı xalqın torpağında qurulduğu barədə suala cavab vermək istəməzlər:** “1918-ci ilə qədər Ermənistan dövləti olmayıb. Var idisə, paytaxtı hansı şəhər idi? 1828-ci il martın 20-də Çar Rusiyası tərəfindən Naxçıvan və İrəvan xanlıqları ərazisində erməni vilayəti yaradıldı. İran tarixçiləri bunu çox yaxşı bilir, lakin dilə gətirmirlər. Bu gün erməni tarixçiləri də Əhəmənilər, Parfiyadan danışırlar, lakin bu danışıqlar heç bir elmi mənbəyə əsaslanmır. Ermənilər hər zaman istədiklərinə "göz yaşları" sayəsində nail olmağa çalışıblar. Görünən odur ki, “böyük Ermənistan” xəyalı puç olub.

Məlumdur ki, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti elan olunanda buna ilk etiraz İrandan gəlmişdi. İran dövləti notasında Azərbaycan dövlətinin adı ilə bağlı sual vermişdi. Təbii ki, özgə ərazidə elan olunan cümhuriyyətdə İranla münasibətləri səmimi saxlamaq üçün mübahisəli heç nə olmadığını, söhbətin Qafqaz Azərbaycanından getdiyini bildirdi. Bununla da məsələnin müzakirəsi tamamlandı. Paris Sülh Konfransında da İran yeni dövlətin yaranması ilə əlaqədar etiraz etmişdi, “bura İran ərazisidir, vaxtilə Çar Rusiyası İranla müharibədə qalib gəlib və müstəqil Azərbaycan xanlıqlarını işğal edib” və s. kimi fikirlər səslənib. Paris Sülh Konfransında İngiltərənin tələbi ilə İranın etirazları sonlandırıldı, hətta İran konfransdan uzaqlaşdırıldı.

Tarixin sonrakı mərhələlərində İran Azərbaycanın mövcudiyyətini anladı, böyük dövlətlərin Azərbaycanı tanıdığını qəbul etdi. Nəhayət, 1920-ci il yanvarın 11-də Paris Sülh Konfransının Ali Şurası Azərbaycanı de-fakto tanıdı, martın 20-də isə İran Azərbaycanı de-fakto və de-yure tanıyan ilk dövlət oldu. Sonrakı mərhələlərdə çox sayda müqavilə imzalandı, konsulluqlar açıldı. Azərbaycan yenidən müstəqilliyini bərpa etdikdən sonra İran tərəfdən həm tarixçilərin, həm siyasətçilərin, həm də dövlət adamlarının Azərbaycanla bağlı müəyyən fikirləri oldu, lakin bu iki qonşu dövlət arasında münasibətləri səmimi etmirdi, əksinə, kəskinləşdirirdi. 44 günlük Vətən müharibəsi İranın Azərbaycana qarşı münasibətini üzə çıxardı. İran Azərbaycana qarşı səmimi olduğunu bəyan etsə də, faktlar əksini sübut etdi. İran nəinki qonşu kimi, hətta ərazisində yaşayan milyonlarla azərbaycanlının maraqlarını müdafiə etmək əvəzinə, Ermənistanı müdafiə etdi, Ermənistanın müharibədə məğlub olmaması üçün əlindən gələni etdi. Orada yaşayanlar həm dil, həm də din qardaşlarımızdır. Odur ki, İranın münasibəti ona hörmət qazandırmadı, çünki Ermənistan işğalçı dövlətdir. Üstəlik, Ermənistan işğal etdiyi 20 faiz Azərbaycan torpaqlarında tarixi, dini, dini abidələri təhqir etmişdi".

**A.İsgəndərli Zəngəzur dəhlizi məsələsində İran və Fransanın Ermənistandan daha çox narahat olduğuna diqqət çəkdi:** “Azərbaycan dövlətinin siyasətində hər bir qonşu dövlətə səmimi, dostluq, hətta qardaşlıq münasibəti var. Qarabağ ermənilərinin taleyi və s. məsələlər isə Azərbaycanın daxili işidir. Azərbaycan əleyhinə danışan İran dövlət xadimləri, parlament nümayəndələri qəhrəman olduqlarını düşünürlər. İran və Fransa haqq işimizə mane olmaq üçün mümkün olan hər şeyi edir, lakin bu əbəsdir. Azərbaycanın haqqını tanıyan dövlətlər var. Ermənilərin törətdikləri göz önündədir. İşğal etdikləri ərazidə bir tikili belə qalmayıb. Dünya Ermənistanı necə müdafiə edə bilər? Odur ki, İran Ermənistanı müdafiə etdikdə hörmət qazanmır”.

❑ **Nigar HƏSƏNLİ,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 127 (8263) 26 iyul 2023

**Türkmənistan qazını Avropa bazarına daşıyacaq Transxəzər qaz kəməri layihəsi yenidən müzakirə mövzusu olmağa başlayıb. Belə ki, bugünlərdə Şuşada keçirilən beynəlxalq mediaforumda Azərbaycan Prezidenti İlham Əliyev birtaniyalı jurnalistin Transxəzər layihəsinə dair sualını cavablandırıb.**

# Transxəzər layihəsi niyə reallaşmır? - Türkmənistandan Bakının mövqeyinə təəccüblü reaksiya

## İlham Şaban: "Aşqabadın bir neçə məqsədi açıq görünür..."




Bildirib ki, Transxəzər Azərbaycanın təşəbbüsü ilə başlayacaq bir layihə deyil: "Çünki Azərbaycanın təşəbbüskarı olduğu layihələr həmin o layihələrdir ki, bu, ölkənin resurslarına əsaslansın. Məsələn, Cənub Qaz Dəhlizi. Biz o layihənin təşəbbüskarıyıq, əsas səhmdarlarından biriyik və əslində biz o layihənin bütün dövlətlərarası, hökumətlərarası sazişlərinin də əlaqələndiricisi kimi çıxış edirik. Bildiyiniz kimi, bu layihə müvəffəqiyyətlə icra olunmuşdur və artıq iki ildir ki, Azərbaycan Avropaya əhəmiyyətli qaz tədarükçüsünə çevrilmişdir və Avropa Komissiyasının Prezidenti Azərbaycanı etibarlı tərəfdaş adlandırır".

**İ.Əliyev qeyd edib ki, Transxəzər layihəsi bir ideya olaraq Türkmənistanın qaz ehtiyatlarına əsaslanır**: "Odur ki, bu təşəbbüsün irəli sürülməsi və yaxud ona sərmayə yatırılması bizdən asılı deyil. Biz nə edə bilərik? Biz tərəfimizdən mövcud infrastrukturumuzu təklif edə bilərik və yaxud müəyyən ərazi təklif edə bilərik ki, yeni infrastruktur inşa edilsin. Lakin eyni zamanda, onu unutmamalıyıq ki, bu gün Azərbaycan üç il əvvəl inşa edilən boru kəmərinin genişləndirilməsi ilə məşğuldur. Nəyə görə? Çünki tələbat artır. TAP boru kəməri 10 milyard kubmetrə hesablanmışdısa, 20 milyard kubmetrə qaldırılmalıdır. TANAP 16-dan 32-yə qaldırılmalıdır. Bu, əvvəllər bizdən gözlənilmirdi. Lakin indi gözlənilir və vəziyyət dəyişib. Odur ki, biz genişlənmə haqqında niyə danışırıq? Azərbaycan daha çox qaz istehsal edəcək və hər yeni il əvvəlki ildən daha çox istehsal edir. Məsələn, 2021-ci ildə biz 19 milyard kubmetr ixrac edirdik, keçən il artıq 22-yə qalxmışdır və cari ildə 24 olacaq. Sizinlə görüşmədiyimiz bu aylarda biz ən azı 300 milyard kubmetr ehtiyatı olan "Abşeron" qaz yatağının kəşfini elan etmişik və artıq ilk quyu "Şahdəniz"dəki bütün quyulardan daha məhsuldardır. Odur ki, bizim boru kəmərləri sisteminin genişlənməsi öz resurslarımızın artması ilə bağlıdır".

**Xəzər dənizinin Şərq sahillərindən əlavə qaz ehtiyatlarına gəldikdə, dövlət başçısı bildirib ki, bunun üçün Transxəzər sualtı qaz boru kəməri inşa edilməlidir**: "İkincisi, Bakıdan Avropa istiqamətində Cənub Qaz Dəhlizi kimi yeni infrastruktur lazımdır. Sual yaranır ki, bu mühüm layihəni kim maliyyələşdirəcək? Bu sualın hələlik cavabı yoxdur. Bu suala cavab tapana qədər layihənin icrası və yaxud da bu məsələ haqqında düşünmək bir o qədər real olmayacaq. Eyni zamanda biz bilirik ki, Avropa bankları mədən yanacağı ilə əlaqədar layihələri maliyyələşdirmir. Odur ki, bu layihə üçün ciddi vəsait cəlb etmək çətin olacaq. Məsələn, Cənub Qaz Dəhlizini inşa edəndə biz korporativ maliyyə ilə bərabər, həmçinin Avropa Yenidənqurma və İnkişaf Bankından, Avropa İnvestisiya Bankından, həmçinin Asiya İnkişaf Bankından və Asiya İnfrastruktur İnvestisiya Bankından vəsait cəlb etmişdik. Lakin indi isə bunlardan ikisi - Avropa institutları mədən yanacağı ilə əlaqədar layihələri hazırda maliyyələşdirmək üçün yaşıl keçid layihələrini maliyyələşdirirlər. Bu da sözsüz ki, vəziyyəti daha çətinləşdirir. Avropada qaz qiymətlərinin dəyişkənliyi də yeni-yeni suallar ortaya qoyur. Həmçinin qiymətə qoyulan məhdudiyyət, - mən düşünürəm ki, bu, qəbulolunmazdır, istehlakçılar həmin yuxarı həddi təyin edir, - bu da istənilən bazar iqtisadiyyatı prinsiplərinə ziddir. Avropa ölkələri illərlə bazar iqtisadiyyatı prinsiplərinin tərəfdarı olub. Beləliklə, real baxışdan bu, çox ciddi bir problemdir. Lakin kimsə Transxəzər boru kəmərini inşa etmək istəsə biz şad olarıq. Nəticədə bizə əlavə tranzit rüsumları ödəniləcək və yeni əməkdaşlıq imkanları yaranacaq".

**Maraqlıdır ki, Türkmənistanda Azərbaycan Prezidentinin cavabı birmənalı qarşılanmayıb. İyulun 24-də Türkmənistan Xarici İşlər Nazirliyi Transxəzər qaz kəməri ilə bağlı açıqlama ilə çıxış edib. Açıqlamada qeyd olunur ki, Türkmənistan Transxəzər qaz kəməri layihəsinin reallaşmasına hər hansı maneə görmür və Xəzərin dibi ilə çəkilməsi nəzərdə tutulan kəmərə öz enerji satışı bazarını şaxələndirmək yolu kimi baxır**: "Türkmənistan əmindir ki, kəmərin çəkilməsi ilə bağlı hər hansı siyasi, iqtisadi və maliyyə problemi yoxdur. Əksinə, Transxəzər qaz kəməri iqtisadi baxımdan səmərəli, tamamilə real, Avrasiya regionunda enerji təhlükəsizliyinə, avropalı istehlakçıların dayanıqlı və fasiləsiz qazla təmin olunmasına töhfə verəcək, nəhayət, bütün tərəflərə, o cümlədən tranzit ölkələrə fayda gətirəcək bir layihədir. Buna görə də Türkmənistan tərəfdaşları ilə birlikdə öz enerji axınlarını diversifikasiya edəcək Transxəzər qaz kəmərinin çəkilməsinə sadiqliyini bəyan edir".

**Türkmənistan XİN bildirir ki, bəzi Qərb mətbuatı Transxəzər kəmərinin çəkilməsi məsələsinə çox diqqət ayırır. Bugünlərdə Şuşadakı beynəlxalq mətbuat konfransında jutnalistlərin suallarını cavablandırarkən Azərbaycan Prezidenti İlham Əliyev "layihənin təşəbbüskarı və maliyyələşdirəni biz olmayacağıq, biz, sadəcə, öz ərazimizi və infrastrukturumuzu tranzit ölkə kimi təqdim etməyə hazırıq" deyib:** "Bununla əlaqədar bildiririk ki, Türkmənistanın təşəbbüskarı olduğu Transxəzər qaz kəməri ilk əvvəldən yalnız iqtisadi və maliyyə baxımından səmərəli layihə kimi deyil, qlobal enerji təhlükəsizliyinə ciddi töhfə verən, bütün tərəflərin - istehsalçı, tranzitçi və istehlakçıların maraqlarını təmin edəcək bir layihədir".

Türkmənistan XİN həmçinin bildirir ki, 5 Xəzəryanı ölkənin 2018-ci ildə dənizin hüquqi statusuna dair imzaladığı konvensiya kəmərin çəkilməsi üçün yalnız iki tərəfin - Azərbaycan və Türkmənistanın razılığa gəlməsi tələb olunur.

Məlumat üçün bildirək ki, Türkmənistan qazının dənizin dibi ilə Azərbaycana, buradan isə Türkiyəyə çatdırılması Türkiyə ilə Türkmənistan arasında 1997-ci ildə imzalanmış alqı-satqı müqaviləsində nəzərdə tutulurdu. Müqaviləyə əsasən Türkiyə ildə 30 milyard kubmetr türkmən qazını almaq öhdəliyi götürürdü. Müqavilənin imzalanmasından dərhal sonra Türkmənistan qazını Xəzərin dibi ilə Azərbaycana çatdıracaq Transxəzər boru xəttinin çəkilməsi ilə bağlı regional və beynəlxalq müstəvidə müzakirələr başladı, ardınca ABŞ və Avropa rəsmilərinin iştirakı ilə konsorsiumun yaradılması elan olundu. Lakin sonradan Rusiyada hakimiyyət dəyişikliyi baş verdi, Putin hakimiyyətə gəldi və bu layihənin tamamilə kənara atılmasına nail oldu.

2022-ci ildə Avropa Ukraynaya qarşı işğalçı müharibə başladan Rusiyanın qazından imtina etdikdən sonra layihə yenidən gündəmə gətirilir. Ötən il Türkmənistana səfər edən Türkiyə Prezidenti Rəcəb Tayib Ərdoğan Transxəzər qaz kəmərinin çəkilişi ilə bağlı da müzakirələr aparıb, layihənin reallaşması üçün zamanın gəldiyini bəyan edib. Eyni zamanda Avropa İttifaqı da layihə ilə bağlı müəyyən aktivlik nümayiş etdirir. Lakin bu aktivlik layihənin icrası baxımından real fəaliyyətlərlə müşayiət olunmur. Xüsusilə layihənin maliyyələşməsi üçün tələb olunan vəsaitin ayrılması ilə bağlı hər hansı ciddi müzakirələr aparılmır. Rəsmi Aşqabad maliyyələşmənin Avropa İttifaqı tərəfindən təmin edilməsinin tərəfdarıdır və bunu açıq bəyan edir. Avropa İttifaqının isə Rusiyanın Xəzər dənizindəki hegemon varlığı şəraitində sırf onun qazını əvəz etmək üçün reallaşdırılacaq layihəyə maliyyə ayıracağı real görünmür.

**Enerji məsələləri üzrə ekspert İlham Şabanın "Yeni Müsavat"a dediyinə görə, Türkmənistan XİN-in açıqlamasının sonunda layihənin istehsalçı, tranzit ölkələr və istehlakçıların maraqlarına xidmət etdiyi vurğulanır:** "Lakin türkmənlər layihənin tarixi kimi 2007-ci ili - Berdumuhemmedovun hakimiyyətə gəldiyi ili götürürlər. Halbuki onun əsası 1997-ci ildə Türkiyə ilə imzalanan müqavilə ilə qoyulub. Əgər belə səmərəli, maneəsiz layihədirsə, 20 ildən yuxarıdır niyə həyata keçirilmir? Xatırlayırsınızsa, Nabukko layihəsi 10 il masada oldu, müzakirə edildi, amma baş tutmadı, 2013-cü ildən tarixə qovuşdu. Ona görə ki, o, istehlakçıya ucuz qaz vəd etmirdi. Özü də Cənub Qaz Dəhlizi Avropanın cənubuna - İtaliyaya gedirsə, Nabukko Avropa qaz bazarının mərkəzinə - Avstriyaya gedirdi. Cənub Qaz Dəhlizi 3 min kilometrdirsə, Nabukko 4 min km idi. Bu kimi layihələrdə əsas diqqət onunla nəql ediləcək qazın iqtisadi baxımdan səmərəliliyinə yönəldilir".

**Ekspert bildirir ki, rəsmi Aşqabadın qənaətincə, Transxəzər qaz kəmərinin reallaşması Azərbaycanla Türkmənistan arasında Xəzərin dibinin bölünməsi məsələsinə bağlıdır:** "Yeni Aşqabad yenə də Xəzərin dibinin sektoral olaraq bölünməsini ümumən qəbul etsə də, amma özünə sərf edən "ayrıca məqamlar"ın (Abşeron yarımadası, Çilov adası kimi coğrafi subyektlərin orta xəttə təsiri) nəzərə alınmamasında Bakı ilə olan əvvəlki fikir ayrılıqlarını yenidən gündəmə gətirir.

Mənim qənaətimcə, 2021-ci ilin yanvarında Türkmənistanla "Dostluq" yatağının birgə işlənməsinə dair imzalanmış sazişin indiyə qədər kağız üzərində qalması məhz rəsmi Aşqabadın tez-tez dəyişən mövqeyinin nəticəsidir. İndi sual edirəm: bəs Aşqabad nədən dövlət səviyyəsində belə bir açıqlama ilə çıxış edir? Düşünürəm ki, məqsəd aşağıdakılardır:

- "Türkmənistan özünün qaz resurslarının çoxşahəli şəkildə beynəlxalq bazarlara çıxarılmasında maraqlıdır" tezisini gündəmdə saxlamaq;
- Bu ideyanın gerçəkləşdirilməsi yönümündə əsas baryerin Xəzərin dibinin bölüşdürülməsinə dair Azərbaycanla olan fikir ayrılığının qalmasını göstərmək;
- Türkmənistan qazının indiyə qədər Avropadakı istehlakçılara çatdırılmaması üçün bütün məsuliyyəti rəsmi Brüsselin çiyinləri üstünə yıxmaq (necə də Kremlin arzuları ilə üst-üstə düşür)".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 127 (8263) 26 iyul 2023

**Güney Azərbaycanın dünyada xüsusi özəllikləri ilə seçilən Urmiya gölü tam qurumaq üzrədir. Araşdırmalara görə, gölün səviyyəsi son 60 ilin ən aşağı həddinə çatıb. Bu o deməkdir ki, gün keçdikcə gölün xilası daha da çətinləşəcək, hətta mümkünsüzləşəcək!**

# Güneydə 15 milyon soydaşımız təhlükədə - bu yayın sonunadək...

## Ekspert: "Faciə onda olacaq ki, ərazidə duzlaşma, şoranlaşma prosesi gedəcək..."

## Deputat: "Güney Azərbaycanda ekoloji terror törədilib"



Tədqiqatçı Maşallah Rəzmi "Azad İran" Teleqram kanalına deyib ki, uzağı bu yayın axırınadək göl tam quruya bilər. O zaman 15 milyona yaxın soydaşımızın həyatı təhlükə altına düşəcək.

Qısası, Güney Azərbaycan gerçək ekoloji fəlakətin bir addımlığındadır. Məlumatlara əsasən, Urmiya gölü ərazisində və bura yaxın bölgələrdə xərçəng kimi xəstəliklər kəskin artıb, heyvanlar tələf olur, bağlar və əkin sahələri məhv olmaqdadır. Duz fırtınaları əmələ gəlir. Aydındır ki, cəhənnəmə dönmüş bir ərazidə heç kim yaşamaz.

Bəs gölün xilası mümkünmü? Bu, təbii prosesdir, yoxsa molla rejiminin xalqımıza qarşı illərlə, məqsədli şəkildə apardığı ekosid siyasətin daha bir acı nəticəsidir? Milyonlarla soydaşımızın taleyi necə olacaq? Azərbaycan dövləti problemin aradan qalxmasına necə kömək ola bilər?

Yeri gəlmişkən, Urmu gölü ətrafında baş verən ekoloji fəlakətlə bağlı başladılan kampaniya davam edir. Dünyanın müxtəlif ölkələrindən olan azərbaycanlılar və əcnəbi ekofəallar "SAVE URMIA LAKE" adı altında sosial mediada videolar paylaşaraq, Urmu gölünün yox olması ilə bağlı xəbərdarlıq mesajları paylaşırlar. Onlar beynəlxalq ictimaiyyətə, ekofəallara və əlaqədar beynəlxalq qurumlara müraciət edərək Urmu gölünün quruması və İran hökumətinin bərpa işləri ilə bağlı verdiyi vədləri yerinə yetirmədiyini bildirirlər. Kampaniyaya qoşulanlar Tehran hakimiyyətini ekoloji faciəyə görə qınayır və milyonlarla insanın həyatını təhlükəyə atan ekoloji problemin həlli üçün əməli addımlar atmasını tələb edirlər.

Artıq Ərdəbildə və Təbrizdə mədəni fəallar Urmu gölünün qurudulmasına qarşı başladılan kampaniyaya dəstək aksiyası keçiriblər. Onlar şəhər məhəllələrinin divarlarına "Urmu gölünün ölümü = Azərbaycan uşaqlarının ölümüdür" "#Urmu_gölü_can_verir" və ""#Urmu_gölü" yazıblar. Qeyd edək ki, Güney Azərbaycanda baş verməkdə olan ekoloji fəlakətlə bağlı ictimaiyyəti məlumatlandırmaq və Urmu gölünün acınacaqlı durumunu vətəndaşların və beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq məqsədilə "#Urmu_Araz_Üçün_Birlik" həştəgi altında kampaniyaya start verilib.

İranın Şərif Universitetinin araşdırmalarının nəticələrinə görə, Urmu gölündə su həcmi son 60 ildə ən aşağı səviyyəyə düşüb. Bu barədə İranın "Etimad" qəzeti məlumat dərc edib. Məlumatda İranın keçmiş ekologiya naziri İsa Kələntəriyə istinadən bildirilib ki, İbrahim Rəisinin hakimiyyətə gəlməsindən sonra gölün bərpası ilə bağlı bütün təbliğatlara baxmayaraq, göldə suyun səviyyəsi daha da azalaraq 700 milyon kubmetrə düşüb. "Bu gedişlə ilin sonuna kimi Urmiya gölündə su qalmayacaq və göl bataqlığa çevriləcək",- keçmiş nazir xəbərdarlıq edib.

**Ekoloq Ənvər Əliyev mövzu ilə bağlı "Yeni Müsavat"a dedi ki, 15 milyard kub metr suyu olan Urmiya gölünün artıq sonu çatıb:** "Göl artıq 95 faiz quruyub. Bu, tektonik göldür. Böyük Qafqaz, Kiçik Qafqaz dağ sistemlərinin bir hissəsidir. Orada əmələ gələn həmin sahə tektonik göldür. Təxminən 40-50 min ilə əmələ gələn bu göl əhalinin ehtiyacını ödəyirdi. Gölə çox çaylar axır, uzunluğu yüz kilometrə yaxın olan çayların sayı 12-13 olmalıdır. Bundan başqa, onlarla xırda çaylar da var ki, gölə axır. Əsasən dağ çayları ilə qidalanır. Çayların buxarlanması nəticəsində göldə duzlar çoxalıb. Gölün ətrafında əsas əhali azərbaycanlılardan ibarətdir. Bu əhali də durmadan artır. Əsas problem elə məhz buradan yaranır. Əhali artdıqca əkin sahələri, heyvandarlıq təsərrüfatına qulluq edən sahələr artır. Amma çayın götürdüyü su mənbələri azalmağa başlayır. Bütün bunlar fəsad yaradır. Nəticədə göl qurumağa başlayır.

Gölün faciəsi artıq İran hökumətini də narahat etməyə başlayıb. Keçən il İran prezidenti ora gəlib, hadisələri yerində dinləyib. Bir neçə variant irəli sürülüb. Bunlardan biri də yaxınlıqda yerləşən çayların birindən su çəkilərək gölə verilməsi idi. İndi isə həmin verilən suyun miqdarının iki dəfə artırılması söhbəti gedir. Uzun illər ərazində formalaşmış bir problemi bir, ya iki ilə həll etmək də çətin məsələdir".

**Ekspert "göl qurusa, nələr olacaq" sualına belə cavab verib:** "Gölün dibinə həddən artıq çox duz yığılıb, onlar tərkibinə görə də müxtəlifdir. Bu gölün əsas problemi quruyandan sonra onun kristallaşması və küləklə ətraf ərazilərə yayılmasıdır. Bu adi yayılma deyil. Nə qədər xırda olsa da, topalanacaq, yağış suları vasitəsilə bitkilərin üzərinə, torpağın alt qatına keçəcək və həddən artıq fəsadlar yaradacaq. Faciə onda olacaq ki, o ərazidə duzlaşma, şoranlaşma prosesi gedəcək. Bu isə olduqca qorxuludur. Bu boyda ərazini, hər halda, İran hökuməti itirmək istəməz. Çünki orada kənd təsərrüfatı, infrastruktur var. Torpaq fondunun itirilməsi İrana baha başa gələr. Oradakı əhalinin köçürülməsi söhbəti var. Orada yaşayanların əksəriyyəti azərbaycanlılar olan əhali ölkənin ayrı-ayrı hissələrinə köçürüləndə, təbii ki, milli tərkibdə disbalans yaranır. Tarixən təbii şəkildə formalaşmış ərazidə siyasi baxımdan da müəyyən problemlər yarana bilər. Ona görə də burada ən dürüst yol, gölü əvvəlki vəziyyətinə qaytarmaqdır".

**Milli Məclisin təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvü Fatma Yıldırım mediaya açıqlamasında bildirib ki, Urmiya gölünün quruması ekoloji fəlakətlərə şərait yaratmaqla soydaşlarımızı öz tarixi yurdlarını tərk etməyə məcbur edir:** "Urmiya gölünün sahilləri Təbriz, Urmiya, Xoy, Marağa, Qoşaçay, Soyuqbulaq, Xana, Salmas, Uşnu və Sulduz kimi bölgələrini əhatə etməklə Cənubi Azərbaycan torpaqlarının beşdə birini təşkil edir. Bu bölgə ən münbit və əkin üçün yararlı bölgələrdən sayılırdı. Etinasız yanaşma nəticəsində Urmiya gölü də quruyur. Qurumazdan əvvəl Urmiya gölünün uzunluğu 140, eni 55 kilometr, ümumi sahəsi 5822 kvadratkilometr, ən dərin yeri isə 16 metr olub. Gölə ümumilikdə 13 iri və çoxlu sayda kiçik çay tökülürdü. Həmin su hövzəsi çox zəngin flora və faunası ilə tanınırdı. Nadir heyvanlar və bitkilər var idi. Göl duzluluğuna görə dünyada üçüncü yeri tutur. Yaxın və Orta Şərqin bu təbiət incisində su səviyyəsinin azalması 1984-cü ildən müşahidə edilməyə başlayıb. Onda güney azərbaycanlı mütəxəssislər, ictimai fəallar, sakinlər həyəcan təbili çalmağa başladılar, BMT-yə qədər müraciət edildi. Lakin təəssüflər olsun ki, həmin müraciətlərə reaksiya verilmədi".

**Komitə üzvünün sözlərinə əsasən, həmin ərazidə Urmiya duzluğu, Urmiya şoranlığı yaranıb:** "Gölün əhatəsindəki əkinçilik üçün yararlı olan minlərlə hektar torpaq sahəsi şoranlaşıb. Gölün qurumaması üçün ildə ən azı 6 milyon kubmetr suya ehtiyac duyulur. Bu qədər su illərdir həmin gölə tökülmür. Bu gedişlə Urmiya gölü tam quruyacaq. Yaranmış vəziyyətlə əlaqədar insanlar həmin ərazidən köçməyə üstünlük verir. Duz tozları küləklə gölün sahilindəki şəhərlərə də yayılır. Bu, bütövlükdə Cənubi Azərbaycanın böyük bir hissəsində ekoloji fəlakətin yaranmasına səbəb olub. Bununla Güney Azərbaycanda ekoloji terror törədilib. Bu, təkcə gölün flora və faunasına qarşı törədilməyib, həm də milyonlarla insanın sağlamlığına, güzəranına, həyatına mənfi təsir göstərir, yaşayış yerini tərk etməsinə səbəb olur. Urmiya gölü cənublu soydaşlarımız üçün mənəvi mənə kəsb etdiyindən davamlı olaraq gölün qurudulmasına qarşı etiraz səslərini ucaldırlar.

İran hakimiyyəti Güney Azərbaycana münasibətdə ayrı-seçkiliyə yol verir. Bəşəriyyət üçün təhlükə olan bu problem barəsində xeyli sənəd imzalansa da, qərarlar yalnız kağız üzərində qalmaqdadır. Ətraf ərazilərdə yaşayan, əksəriyyəti azərbaycanlılardan ibarət olan əhalinin ürək ağrısı ilə dilə gətirdiyi Urmiya gölü İranın ən böyük vilayətlərindən olan Qərbi və Şərqi Azərbaycan arasında yerləşir. Dünyanın ən duzlu üçüncü gölü olan və daha çox soydaşlarımızın məskunlaşdığı bölgələrdə ekoloji böhranın dərinləşməsinin qarşısını alan Urmiya gölünün quruması prosesinin hələ də davam etməsi ciddi narahatlıq yaradır".

❑ **Afaq MİRAYİQ, "Yeni Müsavat"**

# 20 yaşlı Leyla və 8 aylıq körpəsi niyə öldürüldü? - yeni faktlar



**Ötən ay həyat yoldaşı Fərid Hüseynli tərəfindən qəddarcasına qətlə yetirilən BDU tələbəsi 20 yaşlı Leylanın və 8 aylıq körpəsinin ölümü ilə bağlı bəzi detallar ortaya çıxıb.**

Leylanın babası Məhəmməd İbadov "AStar" layihəsinə açıqlaması zamanı qətlin yeni təfərrüatlarından danışıb.

O, cinayət baş verən günü hadisə yerinə Leylanın anasından əvvəl qayınanasının gəldiyini və onun sadəcə özünə çoxsaylı bıçaq zərbələri yetirən oğlunu xəstəxanaya apardığını deyib.

Leyla ilə 8 aylıq körpəsi isə evdə döşəmədə uzanıqlı vəziyyətdə qalıblar. Bu səbəbdən də Leylanın babası bu cinayətin əvvəldən təşkil edildiyini iddia edir.

Əvvəl Fəridin 8 aylıq körpəsini bilməyərəkdən yaraladığı və ona iki bıçaq zərbəsi vurduğu deyilsə də, Leylanın atası Əlişan İbadov bunu təkzib edib. O, balaca Aylaya bıçaqla 7 zərbə endirildiyini və onu qəsdən öldürüldüyünü deyib. Leylanın atası Fəridin uşağı yatdığı döşəyin üzərində bıçaqladığını iddia edib.

Fəridin atası Firdovsi Hüseynli isə qətllə bağlı heç bir məlumatı olmadığını, o gündən sonra oğlu ilə görüşə bilmədiyini deyib.

Məlumat üçün bildirək ki, hadisə iyunun 20-də Abşeron rayonu Qobu qəsəbəsində baş verib. 1993-cü il təvəllüdlü Hüseynli Fərid Leyla ilə yanaşı, 8 aylıq qızını da öldürüb, daha sonra özünə xəsarət yetirib.

YENİ MÜSAVAT
N 127 (8263) 26 iyul 2023

# Azərbaycana dost ölkələrin möhtəşəm layihəsi - Türkiyə və İsrail bu məsələdə anlaşsa...

**Türkiyə Prezidenti Rəcəb Tayib Ərdoğan hesab edir ki, Şərqi Aralıq dənizi hövzəsindən çıxarılan qazın öz ölkəsinin ərazisindən Avropaya nəqlini nəzərdə tutan layihənin perspektivi kifayət qədər yüksəkdir.**





Ərdoğan Ankaraya rəsmi səfərə gəlməsi gözlənilən İsrail baş naziri Benyamin Netanyahu ilə bu layihəni müzakirə edəcəyini bildirib: "Şərqi Aralıq dənizindən qazın Türkiyə ərazisi ilə Avropaya çatdırılması layihəsi ən sağlam layihədir. Əks halda, qazın Avropaya nəqli çox baha başa gələcək. Əgər Türkiyə ərazisi ilə nəql olunarsa, Türkiyə bundan səmərə əldə edəcək. Özü də səmərə həm istehlak, həm də nəql baxımından əldə olunacaq. Hazırda biz Netanyahu ilə ilkin təmaslar qururuq. Ümid edirəm ki, bu hadisə Türkiyə ilə İsrail arasında daha isti münasibətlərin başlanğıcı olacaq".

Məlumat üçün qeyd edək ki, İsrail baş nazirinin Türkiyəyə səfəri təxirə salınıb. Buna Benyamin Netanyahunun ürək əməliyyatı keçirməsi səbəb olub. Ürəyinə iki stend qoyulan baş nazirin həkimlərin məsləhəti ilə xarici səfərləri bir neçə həftəliyə təxirə saldığı bildirilir.

Qeyd edək ki, Şərqi Aralıq dənizindən hasil olunacaq qazın Türkiyə üzərindən Avropaya nəqli ən əlverişli variant hesab olunur. Bu layihə ilə bağlı ilk danışıqlar 2015-ci ildən başlanıb. 2016-cı ildə iki ölkə Aralıq dənizinin dibi ilə Türkiyəyə boru xəttinin çəkilməsi barədə razılığa gəlib, hətta layihələndirmə işlərini həyata keçirmək üçün işçi qrup da yaradılıb. Lakin sonradan münasibətlərdə radikal soyuqlaşma baş verdiyinə görə layihə kənara qoyuldu.



Aralıq dənizi neft-qaz ehtiyatları ilə kifayət qədər zəngin bir bölgədir. ABŞ Geoloji Araşdırmalar Mərkəzinin ehtimallarına görə, Kipr, Livan, Suriya və İsrail arasında qalan dəniz bölgəsində 3,45 trilyon kubmetr qaz və 1,7 milyard barel neft var. Nil Deltası hövzəsində isə 1,8 milyard barel neft, 6,3 trilyon kubmetr təbii qaz və eləcə də 6 milyard barel maye qaz yatağı olduğu ehtimal olunur. Bundan başqa, Kipr adası ətrafında olduğu ehtimal olunan 8 milyard barel neft yatağından başqa Krit adasının cənub və cənub-şərqində "Heredo" adlı yataqda 3,5 trilyon kubmetr qaz olduğu ehtimal edilir.

Bu bölgənin neft-qazla zəngin olmasına dair iddialar 2007-2008-ci illərdən səsləndirilsə də ilk nəticələr 2009-cu ildə əldə olunub-İsrail öz sahillərində ehtiyatlarının həcmi 280 milyard kubmetr hesablanan "Tamar" qaz yatağını kəşf edib. Daha sonra yenə İsrail tərəfindən 620 milyard kubmetrlik ehtiyatı olan "Leviafan" yatağı açılıb. 2011-ci ildə isə Kipr yaxınlığında "Afrodita" yatağı (200 milyard kubmetr ehtiyatla) aşkarlanıb.

2015-ci ildə İtaliyanın "Eni" şirkəti dənizin Misirə aid hissəsində "Zöhr" yatağını kəşf edib - 850 milyard kubmetrə qədər ehtiyatla. 2018-ci ildə onunla eyni həcmdə daha bir yataq açılıb. İsrail, Misir, Kiprdən əlavə, Aralıq dənizinin Suriya, Livan, Fələstin və Yunanıstan hissələrində də böyük ehtiyatların olduğu güman edilir. Buna görə də böyük qüvvələrin bölgəyə marağı getdikcə artır. ABŞ, Fransa, İtaliya şirkətləri kəşfiyyat işləri üçün müxtəlif ölkələrdən lisenziyalar alırlar.

Türkiyə də bölgədə maraqlarını qorumağa, həmçinin dənizin özünə aid hissəsində neft-qaz axtarışlarını genişləndirməyə çalışır. Türkiyənin Aralıq dənizində kəşfiyyat-qazma işləri aparması Yunanıstan tərəfinin etirazlarına səbəb olmaqdadır. Yunanlar Türkiyə ilə Yunanıstan arasında dəniz sularında iqtisadi sərhədlərin müəyyənləşmədiyini əsas gətirməklə Ankaranı dayandırmağa çalışırlar. Türkiyə isə Kipr adası sahillərində hər hansı qazma və ya hasilat işlərinə imkan verməyəcəyini bildirir. Bu məqsədlə türk hərbi gəmiləri dəfələrlə Aralıq dənizinin perspektiv strukturlar olan bölgələrinə yeridilib.

2020-ci ildə Afinada İsrail, Yunanıstan və Cənubi Kipr arasında İsrailin "Leviafan", Yunan Kiprinin "Afrodita" yataqlarının qazını Avropaya çatdıracaq Şərqi Aralıq dənizi qaz boru xəttinin (EastMed pipeline) tikintisi haqqında sazişi imzalanıb. Ötən müddət ərzində hər 3 tərəf sazişi ratifikasiya edib, layihənin texniki-iqtisadi əsaslandırılması işlərinə başlanıb.

Avropa İttifaqı layihənin texniki-iqtisadi əsaslandırmasının hazırlanması üçün 34,5 milyon avro ayırıb, onu özü üçün maraq dairəsində olan layihə elan edib. Bu isə o deməkdir ki, çəkiləcək kəmər Avropa Komissiyasının 3-cü enerji paketinin təsir dairəsinə düşməyəcək. Bundan əlavə, ABŞ da layihəni dəstəkləyib. Hətta Afinadakı imzalanma mərasiminə ABŞ-ın ovaxtkı dövlət katibi Mayk Pompeo da qatılmışdı. Beləliklə, həm Avropa İttifaqının, həm də ABŞ-ın dəstəyini alan "EastMed pipeline" İsrailin "Leviafan" və Kiprin "Afrodita" yataqlarından qazın Kipr adası və Kritdən Yunanıstanın materik hissəsinə, oradan isə İtaliyaya qədər çatdırılmasını nəzərdə tutur. Uzunluğu 1900 kilometr olan qaz kəmərinin 1300 kilometri dənizin altından, 600 km-i isə qurudan keçəcək. Layihənin ümumi dəyəri 7 milyard dollar hesablanır. Lakin əksər analitik mərkəzlər bu məbləğin 9 milyard dollara qədər artacağını gözləyirlər. 2025-2026-cı illərdə istifadəyə verilməsi nəzərdə tutulan kəmərin illik layihə ötürücülük gücü 10 milyard kubmetr olacaq. Türkiyə Kiprə məxsus sərvətlərdən Şimali Kiprin də bəhrələnmək hüququnun olduğunu bəyan edərək, sazişdə bu hüququn təsbit olunmadığına görə ona qarşı çıxıb. Rəsmi Ankara dəfələrlə bəyan edib ki, Şimali Kiprin maraqlarının təmin olunmadığı müddətdə kəmərin çəkilməsinə imkan verməyəcək.

Ötən il Liviya ilə Türkiyə arasında əldə edilən razılaşmaya əsasən, kəmərin keçəcəyi ərazinin bir hissəsi - Kipr adasının Şərq akvatoriyası Türkiyənin müstəsna iqtisadi ərazisi hesab olunur. Bu isə o deməkdir ki, həm layihənin iştirakçıları, həm də əsas dəstəkçisi olan Avropa Birliyi və ABŞ Ankara ilə hesablaşmalı olacaqlar. Artıq ABŞ-ın layihəyə verdiyi dəstəyi geri çəkdiyi və bunu məhz Türkiyənin etirazlarına görə etdiyinə dair məlumat da yayılıb.

Aparıcı beynəlxalq analitik mərkəzlər "EastMed" layihəsinin reallaşması ehtimalını aşağı qiymətləndirirlər. Hətta kəmər çəkilsə belə, illik 10 milyard kubmetrlik ötürücülük gücü ilə Avropanın ehtiyaclarını qarşılamaq imkanında deyil. Elə İsrailin sürətlə artan qaz ixracı potensialına da bu kəmər cavab vermir. Çünki İsrailin özündə qaz hasilatı sürətlə artır. 2022-ci ildə İsrailin qaz hasilatı rekord həcmə - 21,9 milyard kubmetrə çatıb. Bu həcmin 12,7 milyard kubmetri 3 faizlik artım nümayiş etdirən daxili tələbatın ödənməsinə, 9,2 milyard kubmetri isə 29 faiz artım qeydə alınan ixraca yönəldilib.

İsrailin 2022-ci ilin oktyabrında Aralıq dənizində yerləşən Kariş və Kana yataqları ilə bağlı Livanla razılığa gəlməsindən sonra ölkənin ixrac potensialı illik 45 milyard kubmetrə qədər artacaq. Ölkə Misir və İordaniyaya da qaz satır, lakin bu həcmlər də ixrac potensialını tam reallaşdırmaq üçün yetərli deyil. İsrail qaz ixracını mümkün qədər artırmağa çalışır. Bu zaman əsas alıcı qismində, əlbəttə ki, Avropa İttifaqı çıxış edir. 2022-ci ilin iyununda Avropa Komissiyası Qahirədə İsrail və Misirlə qaz idxalına dair razılaşma imzalayıb. Razılaşmaya əsasən İsrail qazı Misirdəki zavodlarda sıxılacaq, daha sonra maye şəklində tankerlərlə Avropaya ixrac olunacaq. Əvəzində Avropa İttifaqı İsrailə hasilatı artırmaq üçün kəşfiyyat və hasilat işlərində, Misirə isə sıxılmış qaz istehsalı infrastrukturunu genişləndirmək üçün kömək edəcək.

Bu ilin iyununda İsraildə yeni qaz yatağı kəşf edilib. Yeni yataq hasilat aparılan "Kariş" və "Tanin" yataqları arasında yerləşir. Onun çıxarıla bilən qaz ehtiyatları 68 milyard kubmetr həcmində hesablanır. "Katlan" adlandırılan yataqda hasilat işləri üçün "Kariş"dəki infrastrukturdan istifadə olunacaq.

Beləliklə, rahatlıqla söyləmək olar ki, İsrailin qaz ixracı potensialı yeni yataqlar hesabına bir neçə dəfə artmaqla ölkəni Avropa İttifaqı kimi əlverişli bazara səmərəli çıxış yolu tapmağa vadar edir. Mümkün variantlar arasında ən səmərəlisi isə məhz Türkiyə üzərindən çəkiləcək kəmər olar bilər. Bu qaz kəmərinin uzunluğu 500-550 kilometr, ötürücülük gücü 32 milyard kubmetr, dəyəri isə 1,5 milyard avro həcmində hesablanır. İlkin dəyəri 7 milyard dollar hesablanan "EastMed" 10 milyard kubmetrlik ötürücülük gücü ilə onunla rəqabət aparmaq imkanında deyil.

Bütün bunlar İsraillə Türkiyənin birgə qaz kəməri layihəsinin həyata keçirilməsini zəruri edir. Hər iki ölkə bunu anlayır və əldə edəcəkləri dvidentləri qiymətləndirir. Buna görə də hələ 2022-ci ilin martında - İsrail Prezidenti İshaq Herzoq Ankaraya səfər edərkən tərəflərin layihə ilə bağlı müzakirələri yenidən başlatdığına dair məlumatlar yayılıb. O zaman Reuters hər iki ölkənin hökumətindəki mənbələrə istinadən layihə ilə bağlı konkret qərarların - kəmərin marşrutu, iştirakçılar və sair, - yaxın dövrdə qəbul ediləcəyini yazmışdı. Türkiyə Prezidentinin son açıqlamaları artıq tərəflərin qeyd olunan məsələlərlə bağlı razılığa gəldiklərini göstərir. Layihənin rəsmi status alması yəqin ki, Benyamin Netanyahunun Ankaraya rəsmi səfəri zamanı baş tutacaq. Bu layihə Türkiyənin regional qaz habına çevrilmək planlarına da təkan verəcək. Hazırda Türkiyədəki mərkəzə mövcud kəmərlər şəbəkəsində qısamüddətli genişləndirmə yolu ilə Rusiya, Azərbaycan və İrandan ildə 70 milyard kubmetrə yaxın qaz ötürülməsi potensialı var. 32 milyard kubmetrlik İsrail qazını da əlavə etsək, Türkiyənin qaz habından çox böyük səmərə əldə edəcəyini söyləyə bilərik.

Onu da bildirək ki, indiyədək İsraildən Türkiyəyə çəkiləcək qaz kəməri üçün əsas maneə Suriya-Türkiyə münasibətlərindəki problemlər hesab olunurdu. Artıq bu istiqamətdə də yumşalmalar, əlaqələrin bərpası üçün zəmin yaradıldığı görünür...

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 127 (8263) 26 iyul 2023

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması**

# İslahatlara orta, yoxsa ali məktəblərdən başlamalı - təhsilin bitməyən problemi

## Ekspert: "Bir çox ölkələrdə ailə təhsil sisteminin bünövrəsi, alt infrastrukturu hesab edilir"



**Bəllidir ki, bütün cəmiyyətlərin iqtisadi-sosial inkişafı, qabaqcıl texnologiyalarla ayaqlaşması, ağıllı gənclər ordusunun yetişməsi təhsilə çox bağlıdır. Hansı cəmiyyətdə ki, təhsilin səviyyəsi aşağıdır, orada toplumun inkişafından söz açmaq qeyri-mümkündür.**

Bu baxımdan, Azərbaycan dövləti də təhsilin yüksək səviyyə qaldırılması üçün son illərdə mühüm addımlar atmağa çalışır. Təhsilin səviyyəsinin yüksəlməsində isə peşəkar kadrların rolu çox mühümdür. Artıq ölkədə kadrların səviyyəsinin yüksəlməsi üçün sertifikasiya imtahanları keçirilir.

Lakin təəssüf ki, aparılan sertifikasiya imtahanlarının nəticələri o qədər də ürəkaçan deyil. Ötən ay ibtidai sinif üzrə sertifikasiya imtahanı üzrə müəllimlərin 55 faizinin 30-50 bal, 35 faizinin 0-29 bal, 10 faizinin isə 51 və yuxarı bal topladığı məlum oldu. Ekspertlərin fikrincə, bu nəticə yalnız orta deyil, eləcə də ali məktəblərdə təhsilin keyfiyyətinin artırılması baxımından siqnaldır. Məsələyə münasibət bildirən **millət vəkili Vüqar Bayramov** Elm və Təhsil Nazirliyinin yetərli bal toplaya bilməyənlərin neçənci illərdə və hansı universitetlərin məzunları olmaları ilə bağlı məlumatları ictimaiyyətə təqdim etməsini təklif etmişdi.

"Bu, ali məktəblərdə pedaqoji fənlərin tədrisinin keyfiyyətinin qiymətləndirilməsinə əsas verə bilər. Yəni əgər həmin müəllimlər ali məktəbləri yeni bitiriblərsə, o zaman ali təhsilin keyfiyyətinin də monitorinq edilməsinə ciddi ehtiyac yarana bilər. Milli Məclisdə qəbul edilən dəyişikliklərə əsasən sertifikasiyada iştirak müddəti pedaqoji fəaliyyətə başladıqdan ilk 5 ildən 3 ilə endirilir və bu da yeni universitet məzunlarının aldıqları təhsilin keyfiyyətini qiymətləndirməyə də imkan verə bilər", - deyə millət vəkili qeyd etmişdi.

Vüqar Bayramov həmçinin bütövlükdə sertifikasiya imtahanlarının yalnız orta deyil, ali təhsildə də islahatların dərinləşdirilməsi mesajlarını aydın şəkildə gündəmə gətirdiyini vurğulamışdı.

Bəs təhsilin yüksək səviyyəyə çatması üçün ilk növbədə orta, yoxsa ali məktəblərdə islahatlar aparılmalıdır? Bunun üçün hansı təhsil proqramlarına ehtiyac var?

**Mövzu ilə bağlı təhsil eksperti Kamran Əsədov "Yeni Müsavat"a danışıb:** "Öncə qeyd edim ki, təhsilin əsas məqsədi öz-özlüyündə bilik əldə etməkdən daha çox, qlobal kapitalizmin tələbatını ödəmək üçün lazım olan bacarıqlar əldə etməyə xidmət edir. Məlumdur ki, cəmiyyətin ahəngdar inkişafında, onun intellektual potensialının formalaşdırılmasında, maddi sərvətlərin insan kapitalına çevrilməsində təhsil, xüsusilə də ali təhsil müstəsna əhəmiyyət kəsb edir. Sürətli dəyişikliklərin baş verdiyi hazırkı vaxtda məhz ali təhsil sosial-iqtisadi və mədəni sahələrdə davamlı inkişafa təkan verən real qüvvə hesab edilir.

Bu mənada təhsilə cəmiyyətdən təcrid olunmuş şəkildə qiymət vermək mümkün deyil və belə bir qiymət obyektivlikdən uzaq olardı. Təhsil cəmiyyətin vacib tərkib hissəsi olduğundan, cəmiyyətdə baş verən bütün proseslər son nəticədə təhsil sahəsindən də yan keçmir. Cəmiyyətin inkişafı təhsilin inkişafını da şərtləndirir və əsas amilə çevrilir. Təhsilin inkişafında dövlətlərdə hökumətlərin rolu çox önəmlidir.

Dövlətlərin təhsilin inkişafındakı məsuliyyətləri, cavabdehliyi ölkələrə görə dəyişkəndir. Bu da təbii prosesdir. Məsələn, Yaponiya Təhsil Nazirliyi islahat üçün 10 nəfərdən ibarət bir alt komissiyası yaradıb. Bu komissiyaya təhsil sisteminin ayrı-ayrı pillələrini yaxşı bilən təhsil işçiləri, cəmiyyətin nümayəndələri daxil edilib. Çox maraqlıdır ki, Təhsil Nazirliyinin bir işçisi, məmuru belə, bu komissiyada yer almayıb. Bu, cəmiyyətin müxtəlif profilli üzvlərinin problemi maddə-maddə ortaya qoymaq, həlli yollarını göstərmək məsuliyyətinə malik olmalarının, təhsilin inkişafının yalnız Təhsil Nazirliyinin vəzifəsi olmadığının göstəricisidir.

Təhsilin ilk və ən önəmli tərəfdaşlarından biri də ailədir. Bir çox ölkələrdə ailə təhsil sisteminin bünövrəsi, alt infrastrukturu hesab edilir. Bu dövlətin təhsil sistemi ailə ilə birlikdə, uyumlu bir şəkildə cəmiyyətə, dövlətin inkişaf məqsədlərinə cavab verən vətəndaşın yetişdirilməsində fəaliyyət göstərir.

İnkarolunmaz faktdır ki, Azərbaycanda təhsilin inkişafı üçün əsas məsuliyyət təhsil işçilərinin, müəllimlərin, təhsili idarəetmə orqanlarının, ilk növbədə Təhsil Nazirliyinin üzərinə düşür. Bu da təbiidir. Lakin yalnız onların səyləri ilə ölkədə təhsil sahəsində ciddi inkişafa nail olmaq mümkün deyildir. Dünyada olduğu kimi, təhsili inkişaf etdirmək üçün cəmiyyətin hər bir üzvü öz səlahiyyəti, qabiliyyəti, potensial imkanları çərçivəsində çalışmalı, milli mənafedən çıxış edərək vətəndaşlıq mövqeyi nümayiş etdirməlidir.

Azərbaycanın Boloniya prosesinə 2005-ci ildə qoşulmasına baxmayaraq, hesab edirəm ki, ötən müddət ərzində universitetlərimizin bu istiqamətdə fəaliyyəti qənaətbəxş sayıla bilməz. Dövlət ali məktəblərində təhsil alan tələbələrin yalnız 25 faizi Boloniya Bəyannaməsinin əsas müddəalarından olan tədrisdə kredit sistemi ilə təhsil alırlar. Bu bizi qane etməməlidir".

**Ekspert qeyd edib ki, problemlərdən biri də daha çox ali məktəblərə qəbula diqqət yetirib, təhsilin keyfiyyəti, universiteti bitirəcək mütəxəssislərin hansı bilik və bacarıqlara malik olmasının ikinci plana keçirilməsi ilə bağlıdır:** "Fikrimcə, ali məktəblərdən çıxış, yəni təhsil müəssisələrini bitirmək məsələsi daha ciddi nəzarətə götürülməli, burada elə mexanizmlər tətbiq edilməlidir ki, yalnız layiq olanlar diplom alsınlar. Çünki ali məktəbi bitirən gənc birbaşa istehsalata, məktəbə, xəstəxanaya, iqtisadiyyatın müxtəlif sahələrinə işləməyə gedir.

Bəzi valideynlər yanlış olaraq düşünürlər ki, onların övladları ali və orta məktəblərdə təhsil alarkən bilik, savad göstərməklə deyil, başqa vasitələrlə qiymət almalıdırlar. Belə insanlar müəyyən mənada müəllimi təhrik edirlər ki, övladı oxumasa da ona qiymət yazılsın, bacarığı olmaya-olmaya ona təhsil haqqında sənəd verilsin. Bütün müəllimlərə, həm ali, həm də orta məktəblərdə çalışanlara, övladları universitet və ümumtəhsil məktəblərində oxuyan valideynlərə müraciət edib demək istəyirəm ki, təhsil haqqında sənədi almağın bir yolu var - yaxşı oxumaq, tədris plan və proqramlarında nəzərdə tutulan bilik və bacarıqlara yiyələnərək imtahan verib müvəffəq qiymət almaq. Heç kim başqa yol axtarmasın, çünki digər yol yanlış yoldur və bu yol bizi yalnız tənəzzülə apara bilər. Cəmiyyətin hər bir üzvü bilməli və çalışmalıdır ki, yalnız müvafiq bilik və bacarığı olan şəxslər təhsil sənədi ala bilər".

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Xalidə GƏRAY**

# Azərbaycanın antirekordu: bu göstərici üzrə niyə illərdir dünyada birinciyik?

## STM mütəxəssisi: "Əsas səbəb selektiv abortlardır, amma..."



**Azərbaycan selektiv abortlarla bağlı ölkələr arasında dünyada birinci yerdədir. Son illər aparılan demoqrafik proseslərin təhlili nəticəsində ölkədə doğulan uşaqların cins strukturunda oğlanların payının və artım tempinin daha yüksək olduğu müəyyən edilib.**

Belə ki, 2021-ci ilin göstəricilərinə görə, Azərbaycanda doğulan hər 100 qıza 116 oğlan düşürdü. 2022-ci ildə isə doğulan bu rəqəm müvafiq olaraq 100 qız, 112 oğlan təşkil edib. Bioloji normaya görə isə yenidoğulmuşların cins nisbəti hər 100 qıza 102-106 oğlan düşür.

**Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri Humay Axundzadə Musavat.com-a bildirdi ki, Azərbaycanda doğulan uşaqların cins nisbətində qeyri-təbii bərabərsizlik 90-cı illərdən başlayaraq yaranıb:** "Statistika regionlara görə dəyişir. Məsələn, Şəki-Zaqatala zonasında bəzi illərdə bu fərq kəskin olub,145 oğlana nisbətdə 100 qız doğulub. Bu məsələ hər zaman beynəlxalq və yerli qurumların diqqət mərkəzində olub. Bu elə problemdir ki, birdəfəlik həlli çətindir. Tək Azərbaycanda deyil, Qafqaz ölkələrində, Çində, Balkan ölkələrində də cins nisbəti pozulub.

Əsas səbəb selektiv abortlardır. Burada ilk amil mədəni amildir. Bəzi cəmiyyətlərdə demoqrafik dəyişikliklərlə əlaqədar tədricən ailədə uşaq sayı azaldıqda təəssüf ki, oğlan uşaqlarına üstünlük verilir. Nəticədə bərabərsizlik yaranır. İllər öncə ultrasəs müayinəsi bu qədər əlçatan deyildi. Azərbaycanda selektiv abortların qarşısını almaq üçün müəyyən zamana qədər uşağın cinsiyyəti gizli saxlanırdı".

**Ekspert hesab edir ki, gender bərabərliyi üçün ən effektiv çıxış yolu ictimai şüurda fundamental dəyişikliklərə nail olmaq lazımdır:** "Qızların və oğlanların bərabər imkanlara malik olması, qız övladının dəyərinin aşılanması çox vacibdir. İctimai təfəkkürdə dəyişiklik statistikaya ciddi təsir edə bilər. Bu məsələni sosial norma çərçivəsindən çıxarmaq lazımdır. İctimai qınaq, həkimlərin mövqeyi və s. nəzərə aldıqda, bu, uzunmüddətli dəyişikliklər tələb edən prosesdir".

**❑ Nigar Həsənli, Musavat.com**



# Bağçalara qəbul başladı - sentyabrın 1-dək...

**Dünəndən uşaqların məktəbəqədər təhsil müəssisələrinə qəbuluna başlanılıb. Oxu.Az xəbər verir ki, valideynlər www.bq.edu.az saytına daxil olmaqla 2023-2024-cü tədris ili üçün müəssisələrə qəbulla bağlı elektron kabinet yarada biləcəklər.**

1 avqust saat 11:00-da regional təhsil idarələri, 8 avqust saat 11:00-da isə Bakı şəhəri üzrə valideynlər məktəbəqədər təhsil müəssisələrinə qəbulla bağlı növbə yarada biləcəklər. Proses sentyabrın 1-dək davam edəcək.

Məktəbəqədər təhsil müəssisələrinə qəbul sistemində növbə yaradarkən bir uşaq üçün maksimum üç məktəbəqədər təhsil müəssisəsini seçmək mümkündür. Mövcud növbələrin boş yer olduğu halda sorğuya çevrilməsi prosesi minimum beş gündən sonra həyata keçiriləcək. Növbə sorğuya çevrildikdən sonra valideyn (və ya qanuni nümayəndə) 15 gün ərzində sənədləri müvafiq müəssisəyə təqdim etməlidir, əks təqdirdə, sorğu silinəcək və növbəli şəkildə digər uşağın qəbulu aparılacaq.

Elektron qəbul sistemi 1-15 sentyabr tarixlərində qrupların komplektləşdirilməsi səbəbindən müvəqqəti dayandırılacaq. Komplektləşdirmə prosesi bitdikdən sonra uşaqların məktəbəqədər təhsil müəssisələrində boş yerlərə qəbulu ilboyu davam edəcək.

Qeyd edək ki, qəbul sistemində ötən tədris ilində yaradılmış növbə və sorğular arxivləşdirilərək valideyn kabinetinə əlavə edilib. Həmin növbə və sorğular bu il üçün keçərli deyil.

YENİ MÜSAVAT
N 127 (8263) 26 iyul 2023

# Ukrayna üçün mühüm gün - iyulun 26-da...

**Əli Orucov:** "Bunlar olmasa, Kiyevin Rusiya üzərində qələbəsi real görünmür"

**Asif Nərimanlı:** "Döyüş meydanında nələrin baş verdiyini dəqiq demək mümkün deyil, çünki..."

**NATO Baş katibi Yens Stoltenberq Ukrayna tərəfinin son hadisələrlə bağlı məsləhətləşmələr aparmaq üçün yeni yaradılmış NATO-Ukrayna Şurasının iclasının çağırılması tələbinə razılıq verib.**

Bunu NATO-nun sözçüsü Oana Lunqesku deyib.

Onun sözlərinə görə, növbədənkənar görüşün bu gün - iyulun 26-da keçiriləcəyi gözlənilir.

Qeyd edək ki, srağagün Vladimir Zelenski NATO Baş katibi Stoltenberqlə danışdığını və Qara dənizdə təhlükəsizliklə bağlı məsləhətləşmələr üçün NATO-Ukrayna Şurasının çağırılmasını təklif etdiyini bildirmişdi.

"Biz Rusiya ilə birlikdəyik" hərəkatının sədri Vladimir Roqov isə deyib ki, Ukrayna Silahlı Qüvvələrinin hücumunun yeni mərhələsi iyulun sonuna planlaşdırılıb və avqustun ortalarına qədər davam edəcək.

Onun sözlərinə görə, Ukrayna tərəfi qüvvələrini cəbhə xəttində cəmləşdirməkdə davam edir, əks-hücumun yeni mərhələsi üçün ehtiyatlar hazırlayır və sahələri təmizləyir. Roqov əlavə edib ki, Ukrayna ordusu Zaporojye Atom Elektrik Stansiyasını ələ keçirmək üçün Dnepropetrovsk vilayətinin Nikopol rayonunda Dnepr çayını Enerqodara doğru keçməyə və ikinci cəbhə xəttini açmağa cəhd edə bilər.

Bu arada Rusiya Prezidenti Vladimir Putin Ukrayna ordusunun əks-hücumunun uğursuz olduğunu iddia edib. Bu haqda o, Belarus Prezidenti Aleksandr Lukaşenko ilə görüşündə deyib. Lukaşenko söhbət zamanı bildirib ki, əks-hücum yoxdur. Putin isə ona cavabında, "Var, amma uğursuz oldu" deyib.

Belədirmi? Məgər Ukraynanın əks-hücum əməliyyatı bitib?

**AMİP liderinin köməkçisi, politoloq Əli Orucov əksini düşünür. Onun fikrincə, Ukraynanın başlatdığı əks-hücum əməliyyatları artıq öz bəhrəsini verməkdədir**: "Əməliyyatların gedişi zamanı bir sıra yaşayış məntəqələri işğaldan azad olunub və cəbhə xəttində ruslar ciddi çətinliklərlə üzləşiblər. Rusiyanın indiyədək 240 mindən çox canlı qüvvəsi məhv edilib. Beynəlxalq təhlilçilərin qənaətinə görə, Rusiya Silahlı Qüvvələri bu müharibədə potensialının üçdə ikisini itirib. İrandan aldığı PUA-lar, yaxud Çindən aldığı silah-sursat hərbi əməliyyatları Rusiya Silahlı Qüvvələrinin xeyrinə dəyişməyə kifayət etmədi. Bu arada isə NATO Ukraynaya hərbi dəstəyinin artırılması ilə bağlı 11-12 iyulda Vilnüsdə keçirilən Zirvə toplantısında yekdilliklə qərar qəbul etdi.

Məlum olduğu kimi, həmin Zirvə görüşünün gündəliyində olan 2-ci məsələ məhz Ukrayna ilə bağlı olmuşdu.



Eyni zamanda beş məsələdən üçü də bu və ya digər şəkildə Ukraynaya dəstək ifadə olunurdu. Müttəfiq ölkələr Kiyevin tam qələbəsi üçün hərbi və maliyyə dəstəyinin daha da artırılması barədə razılığa gəliblər. Doğrudur, Ukraynanın tezliklə NATO-ya qəbulu barədə yekdil fikir olmasa da, Vilnüsdə müttəfiqlərin Ukrayna üçün uzunmüddətli perspektivdə dəstəyin artırılması, Ukrayna və NATO silahlı qüvvələrinin tam qarşılıqlı fəaliyyətini təmin edəcək çoxillik yardım proqramının qəbulu barədə də ortaq fikrə gəliblər. 26 iyunda NATO-Ukrayna Şurasında cəbhədə yaranmış mövcud durum və Kiyevə hərbi, maliyyə dəstəyinin istiqamətləri və həcmi çox güman ki, müzakirə olunacaq. Həmçinin Ukraynanın Alyansa üzvlük perspektivi nəzərdən keçiriləcək. Çünki Kiyevin Şimali Atlantika Blokuna üzvlük məsələsi onun müharibədə qələbə qazanmasından bilavasitə asılıdır.

Odur ki, bu qələbəni təmin etmək üçün NATO Ukraynaya hücum silahları tədarük etməlidir. Çünki indiyədək tədarük edilən silah-sursat əsasən müdafiə təyinatlı idi. Kiyevin tam hərbi üstünlüyü üçün ilk növbədə hava hücumlarından müdafiə sistemlərini gücləndirmək və hava üstünlüyünə nail olmaqdır. İndiyədək bu tipli silahların və hərbi vasitələrin, xüsusən də, döyüş təyyarələrinin "F-16"ların, uzaq məsafəli raket komplekslərinin tədarükündə tərəddüdlər var idi. Bunlar olmasa, Kiyevin Rusiya üzərində qələbəsi real görünmür. Rusiya özü də son dövrlər daha aqressiv taktikaya əl atmaqdadır. Ukraynanın infrastrukturu, mülki təyinatlı obyektləri hədəfə götürülüb. Halbuki 4-cü Cenevrə Konvensiyasına və ona edilmiş 1-ci Əlavə Protokola görə mülki obyektlərə zərbə vurmaq qadağandır. Həmin konvensiyanın 48 və 51-ci maddələri konkret olaraq bu əməli hərbi cinayət hesab edir.

NATO-Ukrayna Şurasında Ukraynaya göstəriləcək dəstək və yardım, eləcə də NATO-ya üzvlüyə qəbul məsələsində ortaya çıxan problemlərin həlli ilə Rusiyaya qarşı görüləcək tədbirləri əhatələnəcək. Putinin Ukraynanın əks-hücumunun uğursuz olması barədə iddiaları özünə təsəlli vermək, Rusiya ictimaiyyətini sakitləşdirməyə cəhddən başqa bir şey deyil. Rusiya demək olar ki, artıq bütün sahələrdə tükənmək üzrədir. Odur ki, daha da amansızlaşıb, beynəlxalq humanitar hüququn bütün normalarını pozmaqda və şiddəti artırmaqda davam edir. Amma bu da uzun çəkməyəcək".

**Siyasi analitik Asif Nərimanlı Rusiya-Ukrayna savaşında döyüş meydanı barədə nələrisə deməyin çətin olduğunu bildirdi:** "Putinin dedikləri təəccüblü deyil, Rusiya prezidenti məhz belə də iddia etməlidir. Lakin həqiqətən də Ukraynanın əks-hücum əməliyyatı ilə bağlı ziddiyyətli informasiyalar, müxtəlif fikirlər var. Döyüş meydanında nələrin baş verdiyini dəqiq demək mümkün deyil, çünki tərəflər informasiya axınını idarə edir. Amma Qərb mediasında peyda olan müxtəlif məlumatlar və fikirlər əks-hücum əməliyyatının istənilən səviyyədə getmədiyinə dair qənaət formalaşdırır.

Müharibənin Öyrənilməsi İnstitutu (ISW) Ukrayna ordusu hücum başlayandan bəri təxminən 250 kvadratkilometr ərazini azad etdiyini açıqlamışdı, yəni bu o qədər də böyük rəqəm deyil. Əks-hücum əməliyyatında hələ ki böyük nəticə əldə edilməməsinin müxtəlif səbəbləri var. Misal üçün, Rusiya müdafiə xətlərini gücləndirib və ərazini minalayıb. Ukrayna ordusunun minalanmış ərazidən keçərək, irəliləməsi çətindir və vaxt tələb edir. Digər tərəfdən, Ukraynanın hava hücumu imkanlarının zəif olması çətinlik yaradır. Bununla yanaşı, Ukrayna minimum itki prinsipi ilə hərəkət edir, bu da nəticə əldə etmək üçün daha çox zaman tələb edir.

Əməliyyatın uğursuz ola biləcəyinə dair proqnozlar əvvəldən də var idi. Buna səbəb kimi əməliyyat planı ilə bağlı Qərb və Ukrayna arasında fikir ayrılıqlarının olduğu iddia edilirdi. Lakin qeyd etdiyim kimi, informasiya qıtlığı döyüş meydanındakı mənzərəni anlamağı çətinləşdirir. Hərçənd əməliyyatın əsas hissəsinin qarşıda olduğu versiyası daha çox inandırıcıdır, hazırda baş verənlər kəşfiyyat xarakteri də daşıya bilər. Ukrayna rəsmilərinin açıqlamalarına nəzər yetirdikdə belə fikir yaranır ki, onlar lazım olan silahlarla tam təchiz edilmədən yekun hücuma keçmək istəmirlər, çünki bu, həm istənilən effekti verməyəcək, həm də böyük itkilərə səbəb olacaq".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

## Zərdüşt Əlizadə: "Paşinyanı öldürüb deyəcəklər ki..."



**"Tarix rels üzərinə qoyulmuş vaqon deyil. Çünki tarixə insan iradəsinin təsiri var. Ona görə də müharibə və sülh məsələsini müzakirə edən zaman demək lazımdır ki, heç biri istisna edilmir. Yəni sülhün və yaxud müharibənin olması mümkün olan haldır. Sadəcə olaraq, burada ehtimalların faiz dərəcəsi var".**

Musavat.com xəbər verir ki, bunu Teleqraf.com-a politoloq Zərdüşt Əlizadə deyib.

O qeyd edib ki, 2020-ci ilin 44 günlük müharibəsindən əvvəl müharibə ehtimalı 80-90 faiz idi:

"O vəziyyətdə sülh ehtimalı 10-15 faiz təşkil edirdi. İndi isə sülh ehtimalı 80 faiz, yenidən müharibə ehtimalı 20 faizdir. Çünki son müharibənin acı nəticələri Ermənistan və erməni cəmiyyəti üçün böyük dərs oldu. Hətta bu müharibədə məğlub olmuş baş komandana, yəni Nikol Paşinyana erməni cəmiyyəti 2021-ci ildəki seçkilərdə yenidən dəstək verdi. Əslində erməni cəmiyyəti bununla müharibə tərəfdarı olan Köçəryan-Sərkisyan komandasının hakimiyyət yolunu bağlamış oldu".

"Bu da erməni cəmiyyətinə aşılanmış olan yanlış təsəvvürlərin təlqin edilməsi ilə bağlıdır. Çünki onlar özlərini hələ də hansısa müstəsna xalq, bütün xalqlarda olmayan hüquqların onlarda cəmləşməsi kimi absurd xəyallarda hiss edir. Ona görə də bu kimi yanlış təsəvvürlər onların həyatını zəhərləyir. Beləliklə, bu amil ermənilərin qonşu xalqlarla normal münasibətlər qurmasına maneə olur".

**Zərdüş Əlizadə hazırda masada Azərbaycanla Ermənistan arasında sülhün təmin edilməsi bağlı ilə bir neçə təklifin olduğunu söyləyib:**

"Zəngəzur dəhlizinin açılması, sərhədlərin delimitasiya və demarkasiyası, sülh müqaviləsi və Qarabağda yaşayan ermənilərin Azərbaycana inteqrasiyası gündəmdə olan məsələlərdir. Bütün bu məsələlər ətrafında fikir müxtəlifliyi var. Ermənistan Zəngəzur yolunun açılmasının əleyhinə olmasa da Rusiya çalışır ki, bu yol üzərində hüquqları öz üzərinə götürsün. Erməni tərəfi isə bunu istəmir. Azərbaycan isə taktiki olaraq Rusiyanı müdafiə edir ki, bu ölkənin Ermənistanla ziddiyyətləri dərinləşsin. Prosesə strateji baxımdan yanaşdıqda Zəngəzur dəhlizinin Rusiyanın deyil, Ermənistanın nəzarətində açılması bizim üçün sərfəlidir. Çünki Rusiya ilə dil tapmaq indi daha çətindir. Yekunda daimi sülhə Ermənistan cəmiyyətinin münasibəti daha önəmlidir. Çünki Paşinyanı hansısa bir terror aktı ilə öldürüb deyəcəklər ki, satqını, xaini öldürdük və bununla da proses dalana dirənəcək".

# Kondisioner xəstəlik yaradır? - Bir daha mif və gerçəklik haqda

## **Həkim-pulmonoloq:** "Ağciyərlərə birbaşa suyun yığılması mümkündür, ona görə də..."

**İsti yay mövsümündə ev və ofislər üçün vazkeçilməz avadanlıqlardan biri də əlbəttə ki, kondisionerdir. Lakin həm ev, həm də iş otaqlarında gen-bol istifadə olunan bu cihazla bağlı hələ də diametral zidd mövqelər mövcuddur.**

Bir qisim o fikirdədir ki, kondisionerin orqanizmə xeyirdən çox ziyanı var. Xalq artisti Brilyant Dadaşova da sonuncuların sırasındadır. Sənətçi bugünlərdə sosial şəbəkədə paylaşdığı videoda deyib ki, mərhum xalq artisti, əmisi oğlu Rafael Dadaşovun ağciyərlərinə su yığılmasına kondisioner altında uzun müddət qalması səbəb olub: "Bir çox həkimlərimiz deyir ki, Günəş şüaları ziyandır. Amma kondisioner ondan da zərərlidir. Ən pisi də odur ki, kondisioner altında yatan insanlar var. Bu, çox təhlükəlidir, fəsadları ağır olur. Əminəm ki, əmim oğlu Rafael Dadaşov da özünü kondisionerlə məhv etdi. Sağlam bədənində ağciyərinə su gəlməsi nə demək idi? Ona dəfələrlə deyirdim ki, lazım deyil. Çox pis vərdişdir. Günəşə birtəhər dözmək lazımdır. Adam sonra öyrəşir. Amma kondisioner altında oturanda bundan imtina etmək olmur. Makiyajıma görə arada kondisionerdən istifadə edirəm, amma sonra 2-3 gün özümə gələ bilmirəm".

Doğrudanmı kondisioner ağır xəstəliklər yaradır, ağciyərlərə su yığılmasına (pnevmoniyaya və s.) səbəb olur? Ümumiyyətlə, kondisionerdən düzgün necə istifadə etməli?

Yeri gəlmişkən, mütəxəssislər kondisionerlərin davamlı yoxlanılmasının və filtrlərinin tez-tez təmizlənməsinin vacib olduğunu deyirlər. Araşdırmalara görə, təmizlənməyən filtrlər bakteriya yayır və bu bakteriyalar havadan nəfəs yolu ilə ağciyərlərə daxil olur. Beləliklə, allergik astma xəstəliyi yarana bilir.



**Həkim-pulmonoloq Əsəd Beydullayev "Yeni Müsavat"a deyib ki, yay aylarında insanları bu istilərdə xilas edən kondisionerlərdir:** "Amma kondisionerlərin də zərərli tərəfləri var. Kondisionerlər mütəmadi olaraq qulluq olunmalı avadanlıqlardır. İstifadəsiz qaldığı müddətdə onların daxilində toz toplana bilir, sonra istifadə olunmağa başlayanda toz evə yayılır. Toza həssas olan, allergiyası olan insanlarda onun kəskinləşməsinə səbəb olur.

Legionella deyilən xüsusi növ infeksiyalar var ki, məhz kondisionerlərdə daha çox olur. Onlarda da pnevmoniya formalaşması mümkündür. Bundan əlavə, soyuğun mexaniki olaraq təsiri ciddi bir məsələdir. Bizdə bir paradoksal vəziyyət var, insanlar adi halda 23 dərəcə temperaturda özünü çox rahat hiss edir. Amma 40 dərəcə istidə otağa girmiş adam nəyə görəsə kondisioneri 20-yə tənzimləyir. Bu kəskin temperatur fərqi insanın tənəffüs yollarına da fəsadsız ötüşmür.

Bunların ən sadəsi hiperhəssaslığı olan insanlarda bronxlarda spazmanın meydana çıxması və öskürəklərin əmələ gəlməsidir. Xəstə bir müddət öskürür, daha isti yerə keçəndə ötüşüb keçir. Amma uzun müddət soyuğun təsirinə məruz qalmaq və immuniteti zəif xəstələrdə təbii ki, pnevmoniyalara gətirib çıxara bilər. Pnevmoniya ilə yanaşı ağciyərə suyun toplanması da mümkün haldır.

O ki qaldı müğənnimizin dediyinə, buna qatılıram. Oradakı klinik durumu təbii ki, bilmirəm. Ancaq mümkündür ki, soyuğun birbaşa təsiri nəticəsində və xəstəliyi olan insanlarda pnevmoniya formalaşsın. Yaxud plevrit baş versin. Bu zaman insan nəfəs darlığından əziyyət çəkir. Təbii ki, ağır xəstədirsə, bu ağırlaşa bilər. Vaxtında üstünə düşülməzsə, təbii ki, çox ağır nəticələnə bilər. Mütləq deyil ki, kondisionerdən olsun, soyuq havalarda da bunun olması mümkündür".

**Həkim əlavə edib ki, ən təhlükəli hallardan biri maşınlarda olan kondisionerlərdir**: "Çünki isti havalarda əksəriyyət maşınlarda kondisioneri qoşur. Ev kondisionerlərindən fərqli olaraq insan maşında kondisionerlə yaxın təmasda olur. Allergiyanın kəskinləşməsi, bronxitlərin meydana gəlməsi, yanaşı olaraq konyunktivit, gözdə, burunda dəyişikliklərin meydana çıxmasına səbəb olur. İmmuniteti zəif insanlarda, xəstəliyə meylli insanlarda plevrit deyilən, ağciyərin üzərini örtən pərdələrin iltihabı, bununla bağlı suyun toplanması da mümkündür. Yəni insanlar kondisionerdən qədərində istifadə etsinlər. Temperaturun mütləq 17-yə düşməsinə ehtiyac yoxdur. 23 dərəcə yetərincə normal temperaturdur".

**❑ Afaq MİRAYİQ, "Yeni Müsavat"**

# Anadan ilginc hərəkət: həbsdəki oğluna balın içində heroin apardı



**Penitensiar Xidmətin əməliyyat aparatının həyata keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində 3 saylı istintaq təcridxanasına narkotik maddə keçirilməsi cəhdinin qarşısı alınıb.**

Bu barədə Musavat.com-a xidmətdən bildirilib.

Qeyd edilib ki, Cinayət Məcəlləsinin 234.4.3-cü maddəsi ilə təqsirli bilinərək həbs edilmiş şəxs Anar Alim oğlu Əsgərova anası Salyan şəhər sakini Ruhəngiz Rzalı qızı Əsgərova tərəfindən gətirilmiş sovqata baxış keçirilən zaman orada olan plastin qabdakı balın içərisində gizlədilmiş bükülüdə ümumi çəkisi 0,800 qram olan narkotik maddə - heroin aşkar olunub.

Faktla bağlı araşdırma aparılır.

# Dələduzluqda suçlanan "İmam Mehdi"nin xanımı "Yeni Müsavat"a yazdı: "Hansısa qüvvələr..."

**Bakı Ağır Cinayətlər Məhkəməsində Aqil Babayevin cinayət işi üzrə məhkəmə prosesi davam edir. İttihama görə, o, özünü "12-ci İmam Mehdi" kimi təqdim edərək 40 nəfərə qarşı dələduzluq edib. Aylardır davam edən prosesdə təqsirləndirilən Aqil Babayev ittihamları qəbul etməyib. Onun həyat yoldaşı Nigar Babayeva "Yeni Müsavat" qəzetinin redaksiyayasına məktub yollayıb. Həmin məktubda xahiş edir ki, onların da mövqeyi qəzetimizdə dərc olunsun.**



**Məktubu olduğu kimi təqdim edirik:**

"Şaurma N 1" restoranının şəriki, "12-ci İmam Mehdi" adı altında həbs olunan Aqil Babayevin cinayət işi üzrə məhkəmə proseslərində ona verilmiş ittiham təsdiqini tapmadığından pərdəarxası olan işlər üzə çıxmağa başlayır. 2021-ci ilin iyulunda ölkə üzrə "12-ci İmam Mehdi" adı altında dələduzluqda ittiham edilən Aqil Babayevə qarşı ifadə verən şəxslərin videorolikləri gündəm oldu. Bir neçə müddətdən sonra məlum oldu ki, Aqil Babayev "Shaurma N1" restoranlar şəbəkəsinin şəriki imiş. 2021-ci ildən indiki vaxta kimi davam edən işdə "zərərçəkmiş" qismində tanınan şəxlərin gülünc və məntiqsiz məhkəmə çıxışları da gündəmi zəbt etməyə davam etdiyindən, bu işin pərdəarxası məqamları ortaya çıxmağa başladı. Belə ki, məntiqə uymayan ən gülünc ifadəsi ilə seçilən "zərərçəkən" Anar Aslanov təhsilli hüquqşünas olduğu təqdirdə Aqil Babayevin evindən pullarının oğurlandığı gün "Aqil Babayevin evinə gecə saat 23:50-də santexnik kimi smestitel dəyişməsi üçün getdiyini", "istintaqda verdiyi ifadəsində isə Aqil Babayevin guya ona 306 min borclu olduğu halda evindən 520 min manat pul götürdüyünü", "Pakdad" restoran sahibi Babaşov Ş.A-ya 200 min dollar borclu olduğu təqdirdə isə guya Aqil Babayevə kasıb ailələr üçün bina tikdirməsinə görə külli miqdarda pul verdiyini" bildirib. Digər "zərərçəkən" Xəyal Mustafayev "Tələbə vaxtından 20 min manat zəkat verdiyini", "zərərçəkən" Əli Quliyev kirayədə yaşaya-yaşaya 14 min 400 manat zəkat verdiyini və digər "zərərçəkənlər" də maddi durumları kifayət qədər yaxşı olmadıqlarına baxmayaraq zəkatı mütləq şəkildə verdiklərini məhkəməyə bildirirlər.

Bundan əlavə, şikayətçilərin sözlərinə görə, Aqil Babayevin onları İmam Mehdi adı ilə aldatması və inandırmasına səbəb kimi "zərərçəkən" Aydın Niftəliyev "Aqil Babayevin onu havaya qaldırmasını, tonqalın üzərində əyləşib qanadlar çıxarmasını", "zərərçəkən" Polad Mustafayev "Ayı bölməsini, səmada möcüzələr göstərməsini", "zərərçəkən" Azər İslamov "Səmada, qiblədə Aqil Babayevin üzünü görməsini", "zərərçəkən" Ömər Qurbanov "Ağacların səcdə etməsini, Aqil Babayevin yanında Cəbrayıl mələyi görməsini", "zərərçəkən" Natiq Sadıqov "Onu ovsunlamasını", "zərərçəkən" Bəruz Kave "Aqil Babayevin onun yuxularına müdaxilə etməsini", "zərərçəkən" Faiq Abdullayev "Cənnətdən bir neçə sot torpaq almasını", "zərərçəkən" Elmar Orucov "Günahlarının pulnan sıfırlanmasını, evinin qara qüvvələrdən təmizlənməsi üçün 40 min manat verməsini", "zərərçəkən" Ramil Seyidov "Futbolda imamlığının tanınmasını", "zərərçəkən" Fuad Məmmədov "Ərəblərin belə bilmədiyi suallara Aqil Babayevin cavab verə bilməsini" və s. göstərən dəlil və sübut olmadan onlardan hansısa uydurulmuş məbləğdə pul almalarını deyirlər.

Bütün bu ifadələrdən göründüyü kimi, Aqil Babayevin həbsdə saxlanılmasına əsaslı səbəb gətirə bilmədiklərinə görə "zərərçəkən" şəxslər hansısa qüvvələrin himayəsi ilə ona "möcüzəvi insan" möhürü vuraraq və məntiqsiz, ağıla sığmayan açıqlamalar verərək, məhkəməni və dövlət qurumlarını ələ salıb yormaqla məşğuldurlar. Bundan əlavə, həmin "zərərçəkmiş" şəxslər qəsdən planlı şəkildə məhkəmənin gedişinə də süni maneələr törədərək, təqsirləndirilən şəxsi və vəkillərini söyüş-təhqir edib, hücum taktikasında olaraq işin obyektiv araşdırılmasına mane olurlar.

Bunu da qeyd etmək lazımdır ki, ittiham tərəfindən çıxış edən şahidlərindən biri Layiq Şıxəliyev Aqil Babayevdən şikayət edən öz qohumunun yalanını dolayısı yolla üzə çıxarsa və Aqil Babayevin dediklərini təsdiq etsə də, digər şahid və zərərçəkənlərin məhkəməyə məcburi gətirilmə qərarı ilə belə işə cəlb edilməsi mümkün olmayıb.

Lakin müdafiə tərəfi 4 şahidin dindirilməsi ilə bağlı vəsatət verməsinə baxmayaraq, hakim ancaq 1 şahidin dindirməsi vəsatətini qəbul edib. Şahid qismində çıxış edən T.Dadaşovaya vəkilin "Aqil Babayevi necə tanıyırdız" sualına bildirib ki, "Aqil Babayevi savadlı, alicənab insandır. "Şaurma N1" şəriki kimi 2013-cü ildə "Şaurma N1" Elmlər filialında mühasibatlıq şöbəsində işləyəndən sonra tanıdım". Vəkilin zəkatın paylanılması ilə bağlı sualına isə T.Dadaşova bildirib ki, "Hər ayın 15-i zəkatları xanımlara mən paylayırdım. Zəkat paylamaq təşəbbüsünü işsiz olduğum vaxt və maliyyə işlərində təcrübəm olduğuna görə mənə Rövşən Kave tapşırmışdı. Hər ay ən azı 15, maksimum isə 22-23 nəfər qadına paket şəklində 200 manat məbləğində zəkat paylayırdım. Bunu təsdiq edən qadınların isimləri və Rövşən Kavenin xətti ilə zərfləri dəlil kimi məhkəməyə təqdim edə bilərəm. Mən zəkatı 2011-ci ildən 2021-ci ilin may ayına kimi Rövşənin verdiyi siyahı üzrə paylamışam. Hər ay ən azı 4000-5000 manat civarında pul paylayırdım". Rövşən Kave üzləşmədə bildirib ki, zərflərin üzərini özü yazmayıbdır, lakin şahid T.Dadaşovanın "Ekspertiza təyin edilsə, bu xəttin kimə aid olduğu dəqiq bilinəcəkdi" deyə cavab verdikdən sonra Rövşən Kave 4-5 nəfərə payladığını etiraf edibdir.

Belə ki, hakim Eldar İsmayılovun ancaq T.Dadaşovanın vəsatətinin qəbul etməsi, T.Dadaşovanın da həqiqətləri deyərək hər ay yığılan zəkatın paylanılmasını etiraf etməsi və beləliklə də Aqil Babayevin işi üzrə ittiham edildiyi CM-in 178.4 maddəsinin dispozisiyasının əlamətlərinin olmaması göz önündədirsə, "Aqil Babayevin hələ də həbsdə saxlanılmasında maraqlı şəxslərin hansı qanuna tabe olması" sualı yaranır".

Qeyd edək ki, hazırda iş üzrə məhkəmə prosesi davam edir.

**❑ E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 127 (8263) 26 iyul 2023

İyul

# Narkotacirlərin okeana buraxdıqları kokain paketlərinin köpək balıqlarına təsiri öyrənilib



**ABŞ-da, Florida ştatında yerləşən Dəniz Laboratoriyasında tədqiqatçı kimi işləyən alim Treysi Fanara və onun komandası narkotik tacirləri tərəfindən okeana buraxılan kokain paketlərinin dənizdəki canlıların həyatına təsirini öyrənib.**

Belə ki, Floridanın cənub hissəsində yerləşən adaların ətrafında altı gün ərzində köpək balıqlarını müşahidə edən tədqiqatçılar balıqların qeyri-adi davranışlar sərgilədiyini müəyyən ediblər. Tədqiqatçılar adətən insanlardan qaçan nəhəng köpək balığının kokain qəbul etdikdən sonra insanlara tərəf üzdüyünü və xəyali bir ovun ətrafında sadəcə dövrə vurduğunu müşahidə ediblər. Treysi Fanara və onun komandası araşdırmalarını davam etdirmək və növbəti mərhələdə köpək balıqlarından qan nümunələri götürməyi planlaşdırırlar.



## Zəlzələdən sonra dağılan evin yerində qarpız bitdi

**Türkiyədə fevralın 6-da baş verən zəlzələdə ən çox zərər çəkən şəhərlərdən biri Antakyada maraqlı hadisə yaşanıb.**

Belə ki, zəlzələ nəticəsində evi tamamilə dağılmış Nəzmi Yamaneri dağıntıların təmizlənməsindən sonra keçmişdə yaşadığı evin ərazisinə baş çəkib və orada qarpızların bitdiyinin şahidi olub. Oğlu bu görüntüləri çəkərək sosial şəbəkələrdə paylaşıb.

"Hər yerdə daş, beton olmuş ərazidən qarpızın yetişdiyini görəndə təəccübləndik. Heç kimin ağlına belə bir şey gəlməzdi. Bəxtimiz gətirsə, yeyəcəyik", - zəlzələ nəticəsində evini itirmiş kişi bildirib.



## Tərk etdiyimiz vərdiş ömrümüzü uzadırmış

**Mümkün qədər uzun müddət gənc və sağlam qalmaq üçün düzgün qidalanmaq, həmçinin çoxlu idmanla məşğul olmaq yaxşıdır. Amma nəticələri artırmaq üçün inanılmaz dərəcədə sadə bir yol var. Söhbət ilk baxışdan qəribə görünən, əslində isə insanın ömrünü əhəmiyyətli dərəcədə uzada biləcək vərdişdən - yerdə oturmaqdan gedir.**

Bununla bağlı britaniyalı alimlərin araşdırmalarından məlum olub. Bildirilir ki, bu nəticələr inanılmaz görünsə də, əslində insan sağlamlığının ümumi fiziki vəziyyətini mükəmməl şəkildə göstərir və funksionallığını ortaya qoyur. Belə ki, gündəlik yerdə oturma vərdişi - tarazlığı və koordinasiyanı yaxşılaşdırmağa kömək edir, həmçinin onurğa sütununu gücləndirir, duruşu düzəldir.

O da bildirilir ki, yerdən qalxma qabiliyyəti 51 yaşdan 80 yaşa qədər olan insanlarda uzunömürlülük göstəricisidir. Təcrübə göstərir ki, yerdən qalxmaqda çətinlik çəkən insanlar bunu rahatlıqla yerinə yetirənlərə nisbətən 5-6 dəfə tez ölmək riski ilə üzləşirlər.

# Bu qidalardan imtina edibsinizsə, tezliklə tükənəcəksiniz

**"İlkin əlamətləri bunlardır - bədəndə qida maddələri, vitaminlər və minerallar yoxdursa, o, öz ehtiyatlarını istifadə etməyə başlayır və bununla da tükənir".**

Bu sözləri genetik, dietoloq Natalya Artemyeva deyib.

"Bütün zəruri vitamin və mikroelementləri əldə etmək üçün insan qida ilə ən azı üç min kilokalori istehlak etməlidir, lakin müasir şəraitdə sıradan insan üçün belə bir pəhriz son dərəcə lazımsız, hətta zərərlidir. Ona görə də qida maddələrindən, vitaminlərdən, mineral komplekslərdən, fitonutrientlərdən və digər maddələrdən istifadə etməklə əla-

və komponentlər əldə edilməlidir", - diyetoloq qeyd edib.

Bədənin tükəndiyini xroniki yorğunluq, yuxusuzluq, mədə-bağırsaq traktının disbiotik pozğunluqları və dəridə quruluq kimi əlamətlərdən anlamaq olar. Mütəxəssisin fikrincə, belə çatışmazlıq aşkar edilərsə, onu mümkün qədər tez aradan qaldırmaq lazımdır ki, müvəqqəti disfunksiya xroniki xəstəliyə çevrilməsin.

Onun sözlərinə görə, rasionda müəyyən qaydalara riayət etmək lazımdır - kalori miqdarı bədən üçün lazım olan miqdardan az olmamalıdır. Həkim liflə birlikdə zülallara diqqət yetirməyi məsləhət görüb. Ancaq fruktoza çəki artımına təsir etdiyi üçün meyvələrə həddindən artıq yüklənməyin. Artemyeva vurğulayıb ki, gündə bir-iki meyvə kifayətdir.

Pəhrizdə pendir, avokado və zeytun yağı kimi sağlamlığa faydalı olan yağlar da olmalıdır. Karbohidratlara gəldikdə, onların sayı azaldılmalıdır, lakin tamamilə kəsilməməlidir, çünki aşağı karbohidratlı bir pəhrizdə bədəndə su azalacaq və bu, bədənin enerji ehtiyatlarını azaldacaq.

Minerallardan orqanizmin ilk növbədə kurkumin, omeqa-3, D vitamini və dəmirə ehtiyacı var. Mütəxəssisin sözlərinə görə, D vitamini qocalma əleyhinə terapiyanın hormonal tənzimləməyə təsir edən, iltihab əleyhinə və digər faydalı xüsusiyyətlərə malik əsas komponentidir və orqanizmin aktiv vəziyyətini saxlamaq üçün dəmir lazımdır.

## Bunları bilirsinizmi?

* Merlin Monronun altı barmağı var idi.
* Eyfel Qülləsinin zirvəsinə 1792 pillə var.
* 1830-cu illərdə ketçup dərman olaraq satılırdı.
* Kirpi suda batmır.
* Rusiyanın dörddə birini meşələr tutur.
* Kəpənəklər dadı ayaqlarıyla hiss edirlər.
* Heç bir kağız parçasını 7 dəfədən çox 2yə qatlamaq olmur.
* Timsahlar rəng korudur.
* Bir insan ömrü boyu orta hesabla 22 kiloqram dəri itirir.
* Səudiyyə Ərəbistanda bir qadının ərinə qəhvə hazırlamaması boşanma səbəbidir.
* Evinizdəki toz hissəciklərinin əksəriyyəti ölü dəri toxumasıdır.
* Dünyanın ən sürətli böyüyən bitkisi olan bambuk bir gündə 90 sm-ə qədər böyüyür.
* Yediyimiz bir şeyə tüpürcəyimiz toxunmazsa, dadını başa düşə bilmərik.
* Dəniz atları erkəkləri hamilə olan yeganə canlı qrupudur.
* Şokoladın itləri öldürdüyü doğrudur. Bu onların ürəyinə və sinir sisteminə zərər verir. Bir kilo şokolad kiçik bir iti öldürə bilər.
* Bayquş mavi rəngi görə bilən yeganə heyvandır.
* Heyvanlar içərisində sadəcə donuzlar günəşdən yana bilər.
* Bir kilo limonun tərkibində bir kilo çiyələkdən daha çox şəkər var.
* Gülərkən 17, qəmgin olarkən isə 43 əzələmizi istifadə edirik.
* Səhər alma yemək qəhvə içməkdən daha çox gümrah hiss etməyimizə kömək edir.
* Havay əlifbasında yalnız 12 hərf var.
* Sarışınların saçları kürənlərdən daha çoxdur.
* Kenqurular geriyə doğru gedə bilmir.
* Qarışqalar yatmır.
* Asqırdığımız zaman ürəyimiz də daxil olmaqla bütün bədən funksiyalarımız bir anlıq dayanır.
* İlanların eşitmə qabiliyyəti yoxdur.

## Bu səhər yeməyi insanı arıqladır



**Dietoloq Mike Mosley arıqlamağa kömək edən səhər yeməyini açıqlayıb. Mütəxəssisin fikrincə, yumurta ən yaxşı səhər yeməyi seçimidir. Onun sözlərinə görə, yumurta zülalla zəngindir və demək olar ki, heç bir karbohidrat ehtiva etmir:**

"Yumurta qan şəkərinin səviyyəsini yüksəltməməklə yanaşı, uzun müddət toxluq və enerji verir. Yumurtaya həmçinin göbələk və ya ispanaq əlavə etsəniz, orqanizm üçün ikiqat faydalı olacaq. Bundan əlavə, karbohidrat səviyyəsi gündə 50 qramdan aşağı olmalıdır. Zülalın, tərəvəzlərin, meyvələrin miqdarını artırsanız, eyni zamanda karbohidratların miqdarını azaldacaqsınız".

## Məşhur "zəlzələ görücüsü"ndən Türkiyə ilə bağlı yeni XƏBƏRDARLIQ



**Böyük zəlzələləri proqnozlaşdıran astronom Frank Hugerbits srağagün Türkiyədə baş verən Adana zəlzələsi ilə bağlı narahatedici paylaşım edib.**

Publika.az xəbər verir ki, Frank Hugerbits sosial media hesabında paylaşım edib. O bildirib ki, bu zəlzələ daha böyük zəlzələlərə təkan ola bilər: "Çünki Ayın həndəsəsi 23-24 iyulda böyük seysmik hadisəyə işarə edir. Diqqətli olmaq lazımdır".

Hər hansı dağıntının olmaması rahatlıq versə də, Frank Hugerbits planetlərin düzülüşü ilə bağlı yeni xəbərdarlıq edib.

Qeyd edək ki, srağagün Türkiyənin Adana əyalətinin Kozan rayonunda 5,5 maqnitudalı zəlzələ olub. Təbii fəlakət nəticəsində dağıntı və itki olmayıb. Yeraltı təkanlar Türkiyənin Osmaniyyə və Qaziantep bölgələrində də hiss edilib.

Səhifəni hazırladı: SELCAN

Redaktor:
Zahid SƏFƏROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri,
R.Rüstəmov küçəsi
2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Sifariş: 1915

Lisenziya N: B 114
SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.